RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 226 (9971) 22 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# ƏZİZ QARDAŞ, YAXŞI DOST

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana DÖVLƏT SƏFƏRİ



### Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev:

Azərbaycan Prezidentinin dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirirəm. **İlham Heydər oğlu Əliyev tarixi miqyasda görkəmli dövlət xadimidir.** O, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. **Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib.** Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahələrdə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır. Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri dayanıqlılıq ilə fərqlənir və ölkənin tərəqqisinin, iqtisadiyyatınızın yaxşı formada olmasının inandırıcı göstəricisidir.

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu, Qazaxıstan-Azərbaycan münasibətlərinin hazırkı yüksək səviyyəsi ilk növbədə Sizin şəxsi töhfəniz sayəsindədir. Mən Sizin bu məsələyə daimi dəstək və diqqətinizi dərindən, yüksək qiymətləndirirəm. **Müasir Azərbaycanın bütün möhtəşəm nailiyyətləri Sizin qurucu, güclü liderliyinizlə ayrılmaz şəkildə bağlıdır.**

Azərbaycan ilə Ermənistan arasında münaqişənin sülh yolu ilə nizamlanmasına dair Bəyannamənin tarixi əhəmiyyətini ayrıca qeyd etmək istəyirəm və **ABŞ Prezidenti Donald Tramp tərəfindən haqlı olaraq qeyd edilib ki, Siz çox güclü mövqeyə malik olmağınıza rəğmən belə bir çox mühüm sənədin imzalanmasına razı oldunuz.** Bu, Azərbaycanın və Sizin rəhbərliyinizlə Azərbaycan xalqının xüsusi mövqeyindən və öz potensialına inamından xəbər verir. **Sizin göstərdiyiniz qətiyyətli siyasi iradə, strateji baxış mürəkkəb məsələlərin həllində və gələcək nəsillərin taleyi üçün məsuliyyətdə müdrik yanaşmanın parlaq nümunəsidir.** Heç şübhəsiz ki, iki dövlət arasında əldə olunmuş razılaşmalar bir növ "suayırıcı" oldu və bütün regionda, zənnimcə, onun hüdudlarından kənarda da əməkdaşlığın yeni üfüqlərini açır.

2-5

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri

# ƏZİZ QARDAŞ, YAXŞI DOST

## Rəsmi qarşılanma mərasimi

**Oktyabrın 21-də Qazaxıstanın paytaxtı Astanadakı "Akorda" Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Akorda" Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Qazaxıstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Kasım-Jomart Tokayevə təqdim edildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Qazaxıstanın Dövlət himnləri səsləndirildi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Dövlət başçıları birgə foto çəkdirdilər.







## Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub



**Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi salamlayan Qazaxıstan Prezidenti **Kasım-Jomart TOKAYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi Qazaxıstan Respublikasında rəsmi dövlət səfərində qəbul etmək mənim üçün böyük şərəf və məmnunluqdur. Bu, ölkələrimiz arasında strateji tərəfdaşlığın, müttəfiqlik qarşılıqlı fəaliyyətinin bundan sonra da möhkəmlənməsi nöqteyi-nəzərindən çox mühüm hadisədir. Mübaliğəsiz əminliklə demək olar ki, Qazaxıstan və Azərbaycan təkcə dost dövlətlər deyil, həm də qardaş xalqlar və millətlərdir. Ona görə də Sizin ölkənizlə çoxşaxəli əməkdaşlığın inkişafı bizim üçün böyük prioritetdir. Üstəlik, Azərbaycan Sizin güclü liderliyinizlə öz mövqelərini xeyli möhkəmləndirib, beynəlxalq arenada nüfuzunu artırıb və dünyanın sizə aid hissəsində regional güc kimi çox mühüm rol oynayır. İqtisadi-ticari əməkdaşlığın, hətta siyasi tərəfdaşlığın inkişaf etdirilməsi də bizim üçün təxirəsalınmaz və çox mühüm vəzifədir.

Sizi ölkəmizdə salamlayıram.

Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli Kasım-Jomart Kemeleviç, sağ olun.

Əvvəlcə qardaş Qazaxıstana dövlət səfərinə dəvətinizə, həmçinin qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istərdim. Azərbaycanın ünvanına söylədiyiniz xoş sözlərə görə sağ olun. Biz qardaş Qazaxıstan xalqına münasibətdə də eyni hissləri bölüşürük.

Həmçinin qardaş ölkənin Sizin rəhbərliyinizlə həm sosial-iqtisadi inkişafda, həm də beynəlxalq mövqelərin möhkəmləndirilməsində uğurlarına sevinirik. Bu gün Qazaxıstan yüksək inkişaf səviyyəsi nümayiş etdirir. Ölkədə ictimai-siyasi sabitlik təmin olunur, iqtisadiyyat güclənir. Biz Sizin həyata keçirdiyiniz islahatları maraqla müşahidə edirik və ölkənin modernləşdirilməsinə, onun potensialının möhkəmləndirilməsinə yönəlmiş kursunuzu tam dəstəkləyirik.

İkitərəfli münasibətlərimizə gəldikdə, Siz onların strateji, müttəfiqlik xarakterini qeyd etdiniz. Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsini hədəfləyirik.

Bu gün biz danışıqlarımız çərçivəsində, həmçinin Ali Dövlətlərarası Şuranın iclasında gündəlikdəki geniş məsələləri bir daha nəzərdən keçirəcək və təbii ki, tərəfdaşlığımızın möhkəmləndirilməsi üçün yeni addımları müəyyən edəcəyik.

Bir daha təşəkkür edirəm.

Prezident **Kasım-Jomart TOKAYEV:** Sizə təşəkkür edirəm.

## Prezidentlərin iştirakı ilə "Orta dəhlizin inkişafı" birgə layihəsi təqdim edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta dəhlizin inkişafı" (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatı olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Qazaxıstanın dövlət başçılarına layihə barədə məlumat verildi.

Qeyd edildi ki, Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Vurğulandı ki, Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır.

Dövlət başçılarına Orta dəhlizin səmərəsini və rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində nəzərdə tutulan konkret addımlar və təşəbbüslər barədə məlumat verildi.

## Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib



**Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Qazaxıstan Prezidenti çıxış edib.**

### Prezident Kasım-Jomart Tokayevin çıxışı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli həmkarlar.

Əvvəlcə Sizi Qazaxıstan Respublikasına rəsmi dövlət səfərində bir daha salamlamaq istərdim. Bu səfər çox mühüm, deyə bilərəm ki, strateji tərəfdaşlığın, müttəfiqlik münasibətlərinin, nəhayət, qardaş xalqlarımız və dövlətlərimiz arasında dostluğun möhkəmlənməsi baxımından çox mühüm əhəmiyyətə malikdir.

Sizi Ali Dövlətlərarası Şuranın ikinci iclasında salamlayıram. Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin bu formatı etimada və qarşılıqlı dəstəyə əsaslanan Qazaxıstan-Azərbaycan münasibətlərinin xüsusi statusunu təsdiqləyir. Şura ikitərəfli əməkdaşlığın bütün istiqamətləri üzrə razılaşdırılmış qərarların işlənib hazırlanması üçün səmərəli platforma kimi çıxış edir.

Azərbaycan Qazaxıstan üçün xüsusi ölkə, qardaş dövlətdir. Bizi ortaq tarixi köklər, zəngin mənəvi-mədəni irs, nəhayət, uyğun mentalitet, hadisələrə, vəziyyətin inkişafına baxış birləşdirir. Bu möhkəm zəmində çoxtərəfli əməkdaşlığımızı uğurla inkişaf etdiririk.

İlham Heydər oğlu, Sizin dövlət səfərinizə xüsusi əhəmiyyət verirəm. Biz artıq mahiyyətcə ən açıq, sərbəst abhavada fikir mübadiləsinə başladıq. Çox şadam ki, gündəliyin bütün əsas məsələləri üzrə - istər ikitərəfli əməkdaşlıq, istərsə də beynəlxalq münasibətlər üzrə ortaq məxrəcə gəlirik. Bu gün mətbuat konfransında bu mövzuya bir daha toxunacağam, çünki Sizin həm öz dövlətinizin rifahı naminə, həm də əlbəttə ki, beynəlxalq şəraitin sağlamlaşdırılması üçün fəaliyyətinizə və gördüyünüz işlərə dair öz nöqteyi-nəzərimi çatdırmağı zəruri hesab edirəm.

Sizin səfərinizin ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Müqavilənin 20-ci ildönümünə təsadüf etməsi rəmzi məna daşıyır. Biz bu illər ərzində fəal siyasi dialoq qurmuşuq, iqtisadi-ticari və mədəni-humanitar qarşılıqlı fəaliyyətin davamlı inkişafı üçün möhkəm müqavilə-hüquqi baza yaratmışıq. Belə bir kompleks, ardıcıl iş iki dövlətin vətəndaşları tərəfindən tam dəstəklənir.

Hörmətli İlham Heydər oğlu, Qazaxıstan-Azərbaycan münasibətlərinin hazırkı yüksək səviyyəsi ilk növbədə Sizin şəxsi töhfəniz sayəsindədir. Mən Sizin bu məsələyə daimi dəstək və diqqətinizi dərindən, yüksək qiymətləndirirəm. Müasir Azərbaycanın bütün möhtəşəm nailiyyətləri Sizin qurucu, güclü liderliyinizlə ayrılmaz şəkildə bağlıdır.

*Ardı 3-cü səh.*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri

# ƏZİZ QARDAŞ, YAXŞI DOST

## Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib





*Əvvəli 2-ci səh.*

Azərbaycan ilə Ermənistan arasında münaqişənin sülh yolu ilə nizamlanmasına dair Bəyannamənin tarixi əhəmiyyətini ayrıca qeyd etmək istəyirəm və ABŞ Prezidenti Donald Tramp tərəfindən haqlı olaraq qeyd edilib ki, Siz çox güclü mövqeyə malik olmağınıza rəğmən belə bir çox mühüm sənədin imzalanmasına razı oldunuz. Bu, Azərbaycanın və Sizin rəhbərliyinizlə Azərbaycan xalqının xüsusi mövqeyindən və öz potensialına inamından xəbər verir. Sizin göstərdiyiniz qətiyyətli siyasi iradə, strateji baxış mürəkkəb məsələlərin həllində və gələcək nəsillərin taleyi üçün məsuliyyətdə müdrik yanaşmanın parlaq nümunəsidir. Heç şübhəsiz ki, iki dövlət arasında əldə olunmuş razılaşmalar bir növ "suayırıcı" oldu və bütün regionda, zənnimcə, onun hüdudlarından kənarda da əməkdaşlığın yeni üfüqlərini açır.

Biz qardaş Azərbaycanın uğurlarına ürəkdən sevinirik, güclü, mütərəqqi dövlət quruculuğu üzrə yüksək məqsədlərin uğurla həyata keçirilməsini arzulayırıq və heç bir şübhə yoxdur ki, Sizin güclü rəhbərliyinizlə bütün bu məqsədlərə nail olunacaq.

Münasibətlərimizə gəldikdə, onların tam şəkildə həyata keçirilməsi üçün böyük potensial var - sarsılmaz etimad, ortaq dəyərlər, xalqlarımızın yaxınlaşmağa səmimi səyləri mövcuddur. Ona görə də əminəm ki, ölkələrimizi böyük gələcək gözləyir.

Sözü Sizə vermək istərdim.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç, sağ olun.

Hörmətli dostlar.

Əvvəlcə qonaqpərvərliyə, qardaş Qazaxıstana dövlət səfərinə dəvətə görə Sizə, Kasım-Jomart Kemeleviç təşəkkürümü bildirmək istərdim.

Siz qeyd etdiyiniz kimi, biz artıq həm dünən, həm də bu gün ikitərəfli gündəliyin bir çox məsələsi, həmçinin regional məsələlər, beynəlxalq siyasət mövzuları üzrə fikir mübadiləsi aparmaq imkanına malik olduq. Müzakirə edilən mövzular üzrə mövqelərin tam uyğun gəlməsi, həmçinin müttəfiqlik qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsinə istiqamətlənmək sevindirici haldır.

Sizi və qardaş Qazaxıstanın bütün xalqını ölkənin sosial-iqtisadi inkişafında böyük uğurlar, Qazaxıstanın beynəlxalq arenada rolunun və nüfuzunun möhkəmlənməsi münasibətilə də təbrik etmək istərdim. Sizin dostlarınız və qardaşlarınız olaraq buna səmimi-qəlbdən sevinirik və əminik ki, Qazaxıstan Sizin rəhbərliyiniz ilə gələcəkdə də inkişaf yolu ilə, milli maraqlara əsaslanan müstəqil xarici siyasətin həyata keçirilməsi yolu ilə irəliləyəcək.

Həmçinin Cənubi Qafqaz regionunda sülh prosesinə verdiyiniz qiymətə görə Sizə təşəkkürümü bildirirəm. Torpaqlarımız uzun illər ərzində işğal altında olanda Qazaxıstan həm ikitərəfli formatda, həm imzalanmış sənədlər, həm də Qazaxıstanın beynəlxalq təşkilatlarda mövqeyi çərçivəsində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəyişməz dəstəyini ifadə edib. Biz həmişə bu dəstəyi hiss etmişik və buna görə Sizə çox minnətdarıq.

Bu gün Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayır, hətta deyərdim ki, artıq yeni mərhələ başlayıb. Sonuncu hərbi toqquşmalardan ötən cəmi iki ildən az bir müddətdə sülh sazişinin paraflanması ondan xəbər verir ki, hər iki ölkə kifayət qədər yüksək siyasi iradə nümayiş etdirib. Əlbəttə, ABŞ Prezidenti Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında rolu ən yüksək qiymətə layiqdir.

Avqustun 8-də Vaşinqtonda keçirilən sammit mahiyyətcə çoxillik münaqişəyə son qoydu və inkişaf, o cümlədən geniş regional kontekstdə - Avrasiya qitəsində tərəqqi üçün böyük perspektivlər açır.

Biz həmçinin bu gün Orta dəhliz üzrə keçirilən qısa təqdimat çərçivəsində fikir mübadiləsi apardıq. Bu gün bu istiqamətdə diskussiyaları hələ davam etdirəcəyik. Zəngəzur dəhlizinin yaxın illərdə açılması nəqliyyat və logistika ilə bağlı məsələlərdə ötürücülük qabiliyyətini xeyli artıracaq.

Bu yaxınlarda Hökumətlərarası Komissiyanın müsbət iclası oldu. İqtisadi-ticari əlaqələrin möhkəmləndirilməsi üzrə ciddi nailiyyətlər əldə olunub, əmtəə dövriyyəsi artır və bu, təbii ki, bizi çox sevindirir. Təsis etdiyimiz Birgə İnvestisiya Fondu da böyük potensiala malikdir. Artıq həyata keçirilmə mərhələsində olan bir neçə layihə mövcuddur və konkret layihələrin nəzərdən keçirilməsi, Birgə İnvestisiya Fondu mexanizmi ilə müştərək maliyyə ilə bağlı təkliflər var.

Həmçinin Qarabağ bölgəsinin bərpasına göstərilən dəstəyə görə təşəkkürümü bildirmək istərdim. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi artıq aktiv fəaliyyət göstərir. Biz onu Sizinlə birlikdə açdıq, Qarabağ bölgəsinin inkişafı və bərpası işinə belə bir töhfəyə görə çox minnətdarıq. Hazırda bu mərkəzdə 100-ə yaxın uşaq təhsil alır və təbii ki, o, praktiki funksiyaları ilə yanaşı, həm də Qazaxıstan-Azərbaycan dostluğunun daha bir ocağıdır.

Humanitar əməkdaşlığa gəldikdə, keçən il və ondan əvvəlki illərdə Azərbaycanda Qazaxıstan mədəniyyəti günlərinin və Qazaxıstanda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini qeyd edərdim. Hesab edirəm ki, bu cür tədbirlər mütəmadi, daimi xarakter daşımalıdır. Ola bilər ki, həm paytaxtlarda, həm də bütün regionlarda müntəzəm mədəniyyət günlərinin keçirilməsi üzrə mədəni qarşılıqlı fəaliyyətin yol xəritəsi hazırlansın.

Həmçinin energetika sektorunun inkişafında, ənənəvi və bərpaolunan mənbələr üzrə böyük potensiala malikik. Keçən ilin noyabrında biz Xəzərin dibi ilə elektrik kabelinin tikintisi üzrə üçtərəfli müqavilə imzaladıq. Zənnimcə, bu gün həmin mövzuda da danışacağıq.

Ümumilikdə gündəlik kifayət qədər genişdir, qarşılıqlı fəaliyyətin demək olar ki, bütün əsas sahələrini əhatə edir.

Qonaqpərvərliyə, həmçinin Azərbaycana səmimi dost münasibətə, eyni zamanda ikitərəfli əməkdaşlığımızla bağlı bütün məsələləri öz şəxsi nəzarətinizdə saxladığınıza görə Sizə bir daha minnətdarlığımı bildirmək istərdim. Sağ olun.

Prezident **Kasım-Jomart Tokayev:** Hörmətli cənab Prezident, Sizə təşəkkür edirəm.

## Azərbaycan-Qazaxıstan sənədləri mübadilə olunub

**Oktyabrın 21-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin mübadiləsi mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasının 20 illiyi münasibətilə Birgə Bəyanatı"nı, "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə dair 1 saylı Qərarı"nı və "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə 2 saylı Qərarı"nı imzaladılar.

Sonra Azərbaycan-Qazaxıstan sənədləri mübadilə olundu.

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qazaxıstanın ədliyyə naziri Yerlan Sersembayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstanın energetika naziri Yerlan Akkenjenov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın daxili işlər naziri Yerjan Sadenov mübadilə etdilər.



"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın Strateji Planlaşdırma və İslahatlar Agentliyinin sədri Aset İrqaliyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Qazaxıstan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın baş prokuroru Berik Asılov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Qazaxıstan Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın səhiyyə naziri xanım Akmaral Alnazarova mübadilə etdilər.

"Samruk Kazına" Səhmdar Cəmiyyəti ilə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) arasında Əməkdaşlıq Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstanın "Samruk Kazına Milli Rifah Fondu" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov mübadilə etdilər.

"Samruk Kazına Azərbaycan İnvestisiya Holdinqi İnvestisiya Fondu MMC" ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə-investisiya mexanizminin təsis edilməsi üçün Çərçivə Sazişi"ni Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qazaxıstanın "Samruk Kazına Milli Rifah Fondu" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qazaxıstan Respublikasının Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Baş nazirinin müavini, süni intellekt və rəqəmsal inkişaf naziri Jaslan Madiyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyi arasında süni intellekt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstanın Baş nazirinin müavini, süni intellekt və rəqəmsal inkişaf naziri Jaslan Madiyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Qazaxıstan Respublikasının Rəqabətin Qorunması və İnkişafı Agentliyi arasında rəqabət siyasəti sahəsində qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qazaxıstanın Rəqabətin Qorunması və İnkişafı Agentliyinin sədri Marat Omarov mübadilə etdilər.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri

# ƏZİZ QARDAŞ, YAXŞI DOST

## Azərbaycan və Qazaxıstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Qazaxıstan Prezidenti bəyanatla çıxış etdi.**







### Prezident Kasım-Jomart Tokayevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə hörmətli Prezident İlham Heydər oğlu Əliyevə dövlət səfəri dəvətimi qəbul etdiyinə və Qazaxıstana gəldiyinə görə səmimi minnətdarlığımı bildirirəm.

Mən bu səfərə xüsusi əhəmiyyət verirəm. Qardaş Azərbaycan xalqının liderini, görkəmli dövlət xadimi Prezident İlham Əliyevi qazax torpağında qəbul etmək bizim üçün böyük şərəfdir.

Ölkələrimiz ümumi köklərə və tarixə malikdir. Azərbaycan Qazaxıstanın mühüm etibarlı strateji tərəfdaşıdır. Bu gün münasibətlərimiz sabit inkişaf edir. Dövlətlərarası əlaqələrimizin möhkəmlənməsinə xüsusi diqqət yetiririk. Xalqlarımız arasında dostluğun gələcəkdə də hərtərəfli möhkəmlənməsi və müxtəlif sahələrdə əməkdaşlığa yeni təkan verilməsi əsas məqsəddir. Bu, iki ölkənin köklü maraqlarına uyğundur. Əminəm ki, bu səfər Qazaxıstan-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə kömək edəcək.

Əminəm ki, bu gün əldə olunan razılaşmalar ölkələrimiz arasında dostluq əlaqələrini daha da möhkəmləndirəcək.

Hörmətli xanımlar və cənablar, Azərbaycan Prezidentinin dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirirəm. İlham Heydər oğlu Əliyev tarixi miqyasda görkəmli dövlət xadimidir. O, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahələrdə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır. Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri dayanıqlılıq ilə fərqlənir və ölkənin tərəqqisinin, iqtisadiyyatınızın yaxşı formada olmasının inandırıcı göstəricisidir.

Qazaxıstanda qardaş Azərbaycanın nailiyyətlərinə ürəkdən sevinirlər. Sizin dövlət səfərinizin ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin 20-ci ildönümündə keçirilməsi rəmzi xarakter daşıyır. Bu illər ərzində dövlətlərimiz ikitərəfli əməkdaşlıqda böyük uğurlar əldə ediblər. Xalqlarımızın dostluğu və qarşılıqlı dəstəyi, ən yüksək səviyyədə intensiv siyasi dialoq və hökumətlərin işi sayəsində çoxplanlı Qazaxıstan-Azərbaycan əməkdaşlığı yüksələn xətlə inkişaf edir, yeni məzmunla zənginləşir. Bugünkü danışıqların nəticələri bunun əyani sübutudur.

Biz qarşılıqlı etimad və hörmət ab-havasında ikitərəfli gündəliyin məsələlərinin geniş dairəsini müzakirə etdik, gələcək çoxtərəfli qarşılıqlı fəaliyyətin prioritetlərini müəyyənləşdirdik. Ali Dövlətlərarası Şuranın iclası məhsuldar keçdi, onun yekunlarına dair bir sıra mühüm sənədlər imzalandı.

Sevindirici haldır ki, ikitərəfli əməkdaşlığın inkişafı üzrə kompleks proqram plana uyğun icra edilir. Danışıqların gedişində iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirildi, razılığa gəldik ki, ən yaxın perspektivdə ikitərəfli əmtəə dövriyyəsini ikiqat artıraq və onu 1 milyard dollara çatdıraq. Kənd təsərrüfatı, energetika, emal sənayesi, inşaat sektoru, rəqəmsallaşma sahələrində böyük imkanlar mövcuddur.

Hər iki tərəf müştərək müəssisələrin yaradılmasına marağı ifadə etdi və bu məsələdə əhəmiyyətli irəliləyişlər var. Məsələn, transformatorların birgə istehsalını təşkil etmək planlaşdırılıb. Mənzil və infrastruktur obyektlərinin tikintisi aparılır, gəmiqayırma sahəsində birgə layihələr hazırlanır. Hökumətlərə bu istiqamətləri nəzarətdə saxlamaq və ən qısa müddətdə, indi deyildiyi kimi, sənaye əməkdaşlığının inkişafı üzrə plan və ya yol xəritəsi qəbul etmək tapşırılıb. Perspektivli, qarşılıqlı faydalı layihələrin maliyyələşdirilməsi üçün Qazaxıstan-Azərbaycan birbaşa investisiyalar fondunun fəaliyyətinin aktivləşdirilməsi qərara alınıb. İki ölkənin işgüzar dairələri arasında təmasların gələcəkdə də genişləndirilməsinin zəruriliyi qeyd olunub. Bununla bağlı səfər çərçivəsində keçirilən Qazaxıstan-Azərbaycan biznes-forumu böyük əhəmiyyətə malikdir. Danışıqlar zamanı infrastruktur layihələrinin xüsusən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi mühüm strateji dəhlizin reallaşdırılması gedişi nəzərdən keçirilib. Keçən il bu marşrut üzrə yükdaşımaların həcmi 62 faiz artıb və 4,5 milyon ton təşkil edib. Bu ilin nəticələri də ümidvericidir, artım 2 faiz təşkil edib. Xarici tərəfdaşlarla "darısqal yerlər" adlanan problemlərin sinxron şəkildə aradan qaldırılması, dəhliz boyunca uzunmüddətli vahid tariflərin müəyyənləşdirilməsi üzərində işləyirik. Sözsüz ki, bu, səmərəliliyi artıracaq, bütün marşrut üzrə fasiləsiz tədarükləri təmin edəcək və bizim planlaşdırdığımız kimi, yükdaşımaların həcmini 10 milyon tona çatdırmağa imkan verəcək.

Bundan başqa, limanlarımızın terminal gücünün inkişafının əhəmiyyəti qeyd olunub. Qazaxıstan Aktauda konteyner habı inşa edir. Ələt limanında yük terminalının xarici, o cümlədən çinli tərəfdaşların iştirakı ilə tikilməsi yaxşı perspektivlər açır. Danışıqlar zamanı yüklərin ixracı üçün yeni Trans-Xəzər bərə sisteminin yaradılması imkanı da müzakirə edilib.

Ölkələrimizin böyük potensiala malik olduğu energetika sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib. Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə nəqli üzrə birgə işimizi məmnunluqla qeyd edirəm. Keçən il bu strateji xammalın Azərbaycan ərazisindən tranziti təxminən 1,5 milyon ton təşkil edib. Yaxın vaxtlarda bu həcmi artırmaq, həm də xeyli artırmaq nəzərdə tutulur.

Milli enerji sistemlərinin inkişafına impuls olacaq daha bir layihə dərin su altında elektrik kabelinin çəkilməsidir, bu, "yaşıl enerji" ixracında mövqelərimizi xeyli möhkəmləndirəcək. Azərbaycan ərazisindən xarici bazarlara Qazaxıstanın uran məhsullarının tədarükü çərçivəsində böyük iş aparılır. Bununla bağlı Azərbaycanın hörmətli Prezidentinə bütün əsas təşəbbüs və layihələri dəstəklədiyinə görə minnətdarlığımı bildirmək istəyirəm.

Süni intellektin sürətli inkişafını nəzərə alaraq, IT sektorunda geniş imkanlar açılır. Qazaxıstan dövlət xidmətlərinin rəqəmsallaşdırılmasında, IT texnologiyalarının inkişafında təcrübə qazanıb və biz bu sahədə müştərək layihələrin həyata keçirilməsinə hazırıq. Danışıqların gedişində Xəzərin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi üzrə layihələrin sürətləndirilməsinin əhəmiyyəti qeyd olunub. Hökumətlərə onun hazır olmasını qısa müddətdə təmin etmək tapşırılıb.

Mədəni-humanitar sahədə qarşılıqlı fəaliyyət ənənəvi olaraq gündəliyimizdə xüsusi yer tutur. Son illərin əlamətdar hadisələri Qazaxıstanın Azərbaycanda mədəniyyət və kino günlərinin keçirilməsi, onların ölkələrimizdə qarşılıqlı təşkilidir. Bu istiqamətdə işlərin sistemləşdirilməsi üçün mədəni əməkdaşlıq proqramının qəbul edilməsi barədə razılığa gəldik. Təhsilin və elmin, gənclərin təmaslarının inkişafı sahəsində geniş potensiala malik perspektivlər ayrıca müzakirə olundu. Bu məqsədlə Bakıda keçən ildən Qazaxıstan-Azərbaycan Elm və Təhsil Mərkəzi fəaliyyət göstərir.

Regional və qlobal gündəliyə dair aktual məsələlər üzrə fikir mübadiləsi aparıldı. Biz beynəlxalq siyasət üzrə bütün aktual məsələlərdə mövqelərin eyniliyini bəyan edirik. Çoxtərəfli strukturlar çərçivəsində işlərin əlaqələndirilməsinin vacibliyi vurğulandı. Regional və qlobal səviyyələrdə sülhün, təhlükəsizliyin, sabitliyin möhkəmləndirilməsinə qarşılıqlı səylər ifadə olundu.

Məlum olduğu kimi, Prezident İlham Heydər oğlu Əliyev Prezident Trampın fəal vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh Bəyannaməsinin imzalanması üzrə tarixi missiyanı yerinə yetirib. Qazaxıstan da bu mühüm hadisəni rəsmi olaraq alqışlayıb. Əminəm ki, əldə olunan razılaşmalar Cənubi Qafqazda ab-havanı möhkəmləndirəcək, ümumi tərəqqi üçün yeni imkanlar açacaq.

Ümumilikdə səfərin yekunları Qazaxıstan-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq, müttəfiqlik ruhunda qardaş xalqlarımızın rifahı naminə gələcək inkişafına qarşılıqlı surətdə hazır olduğumuzu əyani şəkildə nümayiş etdirir.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Əziz dostlar.

Əvvəlcə səmimi qəbula, qonaqpərvərliyə, qardaş Qazaxıstana səfərə dəvətinə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Qazaxıstanı mütəmadi ziyarət edirəm və Prezident Kasım-Jomart Kemeleviç Tokayevin müdrik rəhbərliyi ilə Qazaxıstanda baş verən müsbət dəyişiklikləri, inkişafı əyani şəkildə görürəm. Prezidentin modernləşdirilmə, müasir texnologiyaların, o cümlədən süni intellektin inkişafı üzrə həyata keçirdiyi islahatlar son illər Qazaxıstanın inkişaf və modernləşdirilmə yolunda inamla irəlilədiyini nümayiş etdirir.

Həmçinin Qazaxıstanın beynəlxalq nüfuzu möhkəmlənir. Bu gün Qazaxıstan bütün dünyada etibarlı tərəfdaşdır, milli maraqları çərçivəsində öz siyasətini həyata keçirən, öz kursu ilə irəliləyən dövlət kimi həm də hər şeydən əvvəl yaxşı dostdur.

Azərbaycana gəldikdə, xalqımız, ölkəmiz üçün ən ağır dövrlərdə biz həmişə qardaş dəstəyini hiss etmişik, hər zaman bunu görmüşük. İşğal dövründə Qazaxıstan bütün beynəlxalq platformalarda, Azərbaycanın bütün beynəlxalq təşəbbüsləri çərçivəsində həmişə bizi dəstəkləyib, bizimlə həmrəyliyə səs verib və Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun nizamlanmasına kömək edib.

Kasım-Jomart Kemeleviçə, birincisi həm mənim, həm də ölkəmizin ünvanına xoş sözlərə, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə çox minnətdaram. Avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və onun bu prosesə fəal köməyi ilə sülh sazişinin paraflanmasından sonra Qazaxıstan birincilər sırasında bu məsələyə öz münasibətini bildirib. Mənim Kasım-Jomart Kemeleviç ilə telefon danışığım olub, ona əldə edilən razılaşmaların bütün detalları haqqında məlumat vermişəm və bir daha Azərbaycana qardaş münasibətinin şahidi olmuşam. Biz bu gün də Ali Dövlətlərarası Şuranın iclası çərçivəsində bu məsələ haqqında da, ümumiyyətlə həmin razılaşmaların Cənubi Qafqaza və daha geniş coğrafiyaya, o cümlədən nəqliyyat-logistika sahəsinin inkişafına müsbət təsiri barədə danışmışıq.

Həmçinin deməliyəm ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir.

Xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluq, qardaşlıq birləşdirir. Dövlətlərarası münasibətlərimizi bu möhkəm bünövrə üzərində qururuq. Hətta son üç ildə ondan çox qarşılıqlı səfərlərə baxdıqda münasibətlərimizin necə intensiv xarakter daşıdığını əyani şəkildə görmək olar. Hər bir görüş, hər müzakirə son nəticəyə yönəlib. Bu gün sahə nazirliklərinin hesabatlarını, həmçinin gələcək planları dinlədik. Təbii ki, qarşılıqlı fəaliyyətimizi necə intensivləşdirmək lazım olduğuna dair öz əlavə təlimatlarımızı verdik. Bizim eşitdiklərimiz məmnunluq hissi doğurur. Çünki nəzərdə tutulanların hamısı yerinə yetirilir. Diqqət yetirilməsi və dövlət başçılarının iştirakı tələb edilən məsələlər olduqda, təbii ki, bu, bizim daimi nəzarətimiz altındadır.

Hökumətlərarası Komissiyanın iclasının ardınca keçirilən Ali Dövlətlərarası Şuranın ikinci iclası və Hökumətlərarası Komissiya və Ali Dövlətlərarası Şura çərçivəsində əldə olunan nəticələrin hamısı ölkələrimizin və xalqlarımızın, həmçinin qonşularımızın xeyrinədir. Ona görə də bu gün ölkələrimiz arasında fəal qarşılıqlı fəaliyyət həm də çox ciddi geosiyasi əhəmiyyətə malikdir. Bu gün yeni nəqliyyat yolları açıldıqca, geniş Avrasiya regionu ilə bağlı layihələr həyata keçirildikcə Cənubi Qafqaz və Mərkəzi Asiya daha çox bir-birinə bağlanır və bir çox hallarda vahid coğrafi məkan çərçivəsində çıxış edir. Təbii ki, bütün bunlar daimi diqqət və qarşılıqlı fəaliyyəti konkret nəticələrlə zənginləşdirmək üçün dövlət başçılarının iştirakını tələb edir.

Ölkələrimiz ənənəvi olaraq bir-birini, - istər BMT, istərsə də digər təşkilatlar olsun, - beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyir. Bu yaxınlarda Kasım-Jomart Kemeleviç türk dövlətləri Sammiti çərçivəsində bizi ziyarət etdi. Beynəlxalq platformalarda aktiv qarşılıqlı fəaliyyət bizim aramızda olan yaxınlığı bir daha göstərir.

Gələn il Azərbaycan iki mühüm beynəlxalq tədbirə evsahibliyi edəcək. Əlbəttə, əminəm ki, Kasım-Jomart Kemeleviç bizim fəxri qonaqların arasında olacaq. Bunlar İslam Əməkdaşlıq Təşkilatının Sammiti və Qazaxıstanın təşəbbüsü nəticəsində strukturu formalaşan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinin Sammitidir. Biz bütün beynəlxalq platformalarda demək olar ki, vahid mövqedən çıxış edirik. Bugünkü danışıqlar, fikir mübadiləsi və qərarlar bunu bir daha təsdiq edir.

Kasım-Jomart Kemeleviç iqtisadi-ticari qarşılıqlı fəaliyyət, nəqliyyat-logistika sahəsi, energetika sektoru, humanitar əməkdaşlıq sferası məsələlərini ətraflı işıqlandırdı. Öz tərəfimdən əlavə edərdim ki, Azərbaycanın bütün vətəndaşları, o cümlədən indi azad olunmuş Qarabağda yaşayanlar Qarabağın dirçəlişində Prezident Tokayevin və qardaş Qazaxıstan xalqının rolunu həmişə minnətdarlıqla qeyd edirlər. Prezident Tokayevlə Füzulidə açılışını etdiyimiz Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu gün təkcə uşaqların təhsili və inkişafı ocağı deyil, həm də qardaşlığımızın və dostluğumuzun rəmzidir. Qarabağ bölgəsinə istər avtomobil nəqliyyatı ilə, istərsə də avianəqliyyatla səfər edən istənilən şəxs, - Füzulidən başqa bölgələri ziyarət etmək üçün istifadə edənlər, - Kurmanqazı adına Mərkəzin yaxınlığından keçərkən hər bir Azərbaycan vətəndaşı və ölkəmizin qonağı qardaş köməyinin şahidi olur. Bu, bizim, o cümlədən Qazaxıstanın qardaş köməyi sayəsində genişmiqyaslı "Böyük Qayıdış" layihəsini uğurla həyata keçirdiyimiz bir vaxtda müstəsna əhəmiyyətə malikdir.

Bu gün Orta dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı təqdimat da etdik. Bununla yanaşı, öz tərəfimdən əlavə etmək istəyirəm ki, hazırda biz hər şeyi planlaşdırır və həyata keçiririk, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər.

Bildiyiniz kimi, avqustda keçirilən Vaşinqton Sammitinin nailiyyətlərindən biri TRIPP (The Trump route for international peace and prosperity) layihəsidir. Prezident Tramp layihəyə öz adını verib və bu, layihənin mütləq reallaşdırılacağından xəbər verir. Bununla da Orta dəhlizin daha bir marşrutu açılır. Ənənəvi olanlara daha biri əlavə olunur - Zəngəzurdan ən yüksək müasir standartlarla 15 milyon ton yük dövriyyəsi. Beləliklə, Asiyadan Avropaya və əks istiqamətdə bizim ölkələrimizdən keçən yüklərin həcmi özlüyündə artım potensialına malikdir, amma həm də onların qəbulu və göndərilməsi üçün daha da böyük potensial olacaq.

Bu gün müzakirə etdiyimiz digər məsələlərlə bağlı Kasım-Jomart Kemeleviç hər şeyi danışdı və mənim əlavə edəcəyim heç nə yoxdur.

Qardaş münasibətinə, səmimi qəbula görə, sadəcə olaraq, bir daha minnətdarlığımı ifadə etmək və Prezident Tokayevi gələn il istənilən uyğun vaxtda Azərbaycana dövlət səfərinə dəvət etmək istərdim.

Sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri

# ƏZİZ QARDAŞ, YAXŞI DOST

## Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev Astanada "Alem.ai" Beynəlxalq Süni İntellekt Mərkəzində olublar



**Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Astanada "Alem.ai" Beynəlxalq Süni İntellekt Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına bu il yaradılan mərkəz barədə məlumat verildi.

Qeyd olundu ki, mərkəzin yaradılmasında məqsəd Qazaxıstanda ictimai və iqtisadi həyatın bütün sahələrində innovasiyaları və süni intellekt texnologiyalarının inkişafını təmin etməkdir. Mərkəzdə fəaliyyət göstərən "İctimai məkan" hər il buraya 10 min istedadlı insanın cəlb edilməsini nəzərdə tutur. Burada süni intellekt sahəsində ən son nailiyyətlərə həsr olunmuş forumlar, mütəxəssislərin görüşləri və açıq mühazirələrin keçirilməsi, həmçinin süni intellekt üzrə vakansiya yarmarkaları, hakatonlar və startap müsabiqələrinin təşkili planlaşdırılır. Mərkəzdə proqramlaşdırma üzrə ilkin bacarıqlar tələb etmədən süni intellekt sahəsində pulsuz təhsil almaq üçün unikal imkan verən "Tomorrow School" və startapların sürətləndirilməsi məqsədi daşıyan süni intellekt kampusu fəaliyyət göstərir. Qabaqcıl texnologiyaların inkişafı və davamlı sahibkarlıq ekosisteminin formalaşdırılması yolu ilə hər il 100 yeni süni intellekt startapının fəaliyyətə başlaması planlaşdırılır.

Burada təşkil edilən tədqiqat laboratoriyalarının əsas məqsədi isə süni intellekt sahəsində elmi tədqiqatların inkişafı və dəstəklənməsi, innovasiyaların təşviqi və qabaqcıl texnologiyaların yaradılmasıdır. Laboratoriyalarda hər il 10 elmi-tədqiqat layihəsinin həyata keçirilməsi planlaşdırılır.





## Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri başa çatıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına dövlət səfəri oktyabrın 21-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yola saldı.

## Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında müzakirələrə sədrlik edib







**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında iştirak etmək üçün Cenevrə şəhərinə işgüzar səfərə gedib. Azərbaycan parlamentinin spikeri assambleyanın dünən davam edən müzakirələrinə sədrlik edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirələrdə Avstraliya, Kolumbiya, Mozambik, Serbiya, Liviya, Finlandiya, Macarıstan, İspaniya, Türkiyə, Uruqvay, Belçika və digər ölkələrin parlament təmsilçiləri çıxış ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova assambleyanın "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda keçirilən ilk gün müzakirələrində çıxış edib.

*"Azərbaycan"*

## Cenevrədə Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşü keçirilib



**Oktyabrın 21-də Cenevrədə Parlamentlərarası İttifaqın 151-ci Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşü keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, aparılan müzakirələrdə spikerlər Vaşinqton Sammitində əldə olunmuş razılaşmaları və münasibətlərin normallaşması üzrə görülən tədbirləri alqışlayıblar.

Spikerlər konstruktiv dialoqun davam etdirilməsinin vacibliyini qeyd edərək, parlamentlər səviyyəsində etimadın möhkəmləndirilməsi tədbirlərini dəstəkləməyə hazır olduqlarını bildiriblər.

*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Dostluğa, müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlər

### Azərbaycan-Qazaxıstan əlaqələri bütün sahələrdə dinamik inkişaf edir

**Dövlətlərarası əlaqələrdə əsas məsələ, ilk növbədə, siyasi dialoqun səviyyəsidir. Siyasi dialoq güclü olanda, möhkəm təməllər üzərində qurulanda digər sahələrdə də əlaqələrin göstəriciləri yüksək olur. Azərbaycan-Qazaxıstan münasibətlərinin fonunda bunu aydın görmək mümkündür. Məhz siyasi dialoqun yüksək səviyyədə olmasının nəticəsidir ki, iki dövlət arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.**

Bu məsələlər Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfərindən əvvəl bu ölkənin "Kazinform" agentliyinə verdiyi eksklüziv müsahibədə geniş yer alıb. Əlaqələrin hərtərəfli fikir süzgəcindən keçirildiyi müsahibədə toxunulan bütün məsələlər göstərir ki, yüksək siyasi dialoqa və qarşılıqlı etimada əsaslanan Azərbaycan-Qazaxıstan münasibətləri bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir.

#### Dövlət başçılarının qarşılıqlı səfərləri yüksək siyasi dialoqun göstəricisidir

İki dövlət arasındakı siyasi dialoqun yüksək səviyyədə olmasını təsdiq edən faktorlardan biri Azərbaycan və Qazaxıstan prezidentlərinin dostluq münasibətləridir. Onların qarşılıqlı səfərlərinin intensivliyi də, ilk növbədə, dostluqdan irəli gəlir. Son 3 ildə Prezident İlham Əliyev Qazaxıstana 7, Prezident Kasım-Jomart Tokayev Azərbaycana 6 dəfə səfər edib. "Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir", - deyə Prezident İlham Əliyev müsahibədə bildirib.

Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın fəaliyyəti də iki dövlət arasındakı dərin siyasi münasibətlərdən xəbər verir. Xatırladaq ki, Şuranın birinci iclası Azərbaycan və Qazaxıstan Prezidentlərinin iştirakı ilə ötən ilin mart ayında Bakıda keçirilib. Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri zamanı Astanada keçirilən ikinci iclasda isə qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri və Azərbaycan-Qazaxıstan münasibətlərinin yeni səviyyəyə qaldırılması istiqamətində atılacaq addımlar müzakirə olunub.

Azərbaycanla Qazaxıstan arasındakı münasibətlərin daha bir mühüm göstəricisi iki ölkənin strateji tərəfdaşlığıdır. Hələ 2004-cü ilin mayında Astanada "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə", 2005-ci ilin may ayında Bakıda "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzalanıb. 2022-ci ilin avqust ayında isə "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" imzalanıb. Prezident İlham Əliyev müsahibəsində qeyd etdiyi kimi, iki dövlət arasında həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurulub: "Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur. Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq".

Qazaxıstan dövləti tərəfindən Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin inşası isə həm də iki dövlətin dostluğunun və qardaşlığının təcəssümüdür. Bu, Qazaxıstanın Azərbaycana qardaş köməyidir, hədiyyəsidir, azad edilmiş ərazilərin bərpasına göstərdiyi dəstəkdir. Müsahibəsində bu mövzuya toxunan Prezident İlham Əliyev Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə görə qardaş Qazaxıstana bir daha minnətdarlığını bildirdi, mühüm mədəni-maarif müəssisəsinə çevrilən mərkəzdə hazırda 100-ə yaxın uşağın təhsil aldığını bildirdi.

#### İqtisadi əməkdaşlıq genişlənir

Azərbaycanla Qazaxıstan oxşar inkişaf göstəricilərinə malikdirlər. Bu da hər iki ölkənin həm zəngin karbohidrogen ehtiyatlara malik olması, həm "Şərq-Qərb" nəqliyyat marşrutu üzərində yerləşmələri və innovativ iqtisadi təşəbbüsləri dəstəkləmələrindən irəli gəlir. Bu baxımdan iki ölkənin əlaqələrində əsas yerlərdən birini iqtisadi əməkdaşlıq təşkil edir. Prezident İlham Əliyevin müsahibədə qeyd etdiyi məsələlər iki ölkə arasındakı iqtisadi əməkdaşlığın da yüksək səviyyəsindən xəbər verir. Dövlətimizin başçısının bildirdiyi kimi, Azərbaycanla Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir: "İqtisadi-ticari qarşılıqlı fəaliyyətin davamlı artımını məmnunluqla qeyd edirik. Hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir. Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub".

Müsahibədə Prezident İlham Əliyevin diqqətə çatdırdığı iqtisadi göstəricilər Azərbaycanla Qazaxıstan arasında bu istiqamətdə əməkdaşlığın dinamik artımından xəbər verir. İlk növbədə bunu artan əmtəə dövriyyəsindən görmək mümkündür. Belə ki, 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla, 547 milyon dollara çatıb. Prezident İlham Əliyev bildirdi ki, bu artım Orta dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.

Ümumiyyətlə, Orta dəhlizin inkişaf etdirilməsi, ötürücülük qabiliyyətinin artırılması həm Azərbaycanın, həm də Qazaxıstanın xüsusi diqqət yetirdiyi məsələdir. Təsadüfi deyil ki, hər iki ölkədə həyata keçirilən nəqliyyat layihələri Orta dəhlizin göstəricilərinin yüksəlməsi ilə müşahidə olunur. Prezident İlham Əliyev qeyd etdi ki, 2024-cü ildə Azərbaycanla Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün infrastrukturun modernləşdirilməsi, qatarların yenilənməsi və sair üzrə həyata keçirilən tədbirlər Orta dəhlizin Avropa ilə Asiya arasında əsas tranzit marşrutu kimi mövqeyinin möhkəmlənməsinə imkan verəcək. Azərbaycanla Qazaxıstan arasındakı investisiya əməkdaşlığının möhkəmlənməsi isə müsahibədə qeyd olunduğu kimi, tərəflərin uzunmüddətli tərəfdaşlığa və davamlı inkişafa qarşılıqlı marağını nümayiş etdirir.

Azərbaycan-Qazaxıstan münasibətləri bütün müstəvilərdə sürətlə inkişaf edir. Bu iki türk dövləti arasındakı əlaqələrin daha da inkişafı üçün geniş imkanlar var. Bu baxımdan Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri əlaqələrin daha da inkişafına mühüm töhfə verəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## "İkitərəfli əməkdaşlığın dərinləşməsinə təkan verən konstruktiv dialoqdur"



Azərbaycan və Qazaxıstan arasında münasibətlər diplomatik əlaqələrin qurulduğu tarixdən yüksələn xətlə inkişaf edib. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din, ortaq dəyərlər birləşdirir. İki dövlət arasında strateji tərəfdaşlığa əsaslanan güclü və hərtərəfli münasibətlər qurulub. Tərəflər arasında imzalanan 170-dən çox sənəd münasibətlərin inkişafını təmin edən geniş hüquqi baza formalaşdırıb.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, bu il 20 illiyi qeyd edilən Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq haqqında müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək vacibdir. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib. "Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda ən yüksək mərhələsini yaşayır. Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri formalaşıb. Sözsüz ki, ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan və Qazaxıstan ikitərəfli münasibətlərlə yanaşı, çoxtərəfli formatlarda, xüsusilə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi və digər platformalar çərçivəsində də səmərəli əməkdaşlıq edirlər. Ölkələrimiz beynəlxalq arenada bir-birini dəstəkləyir, bir çox məsələdə ortaq mövqeyi bölüşürlər.

V.Rəhimzadə bildirib ki, Prezident İlham Əliyev bu ölkəyə növbəti dövlət səfəri çərçivəsində Ali Dövlətlərarası Şuranın iclasında iştirak etdi.

Deputat vurğulayıb ki, iki dövlət arasında münasibətlərdə nəqliyyat-logistika əməkdaşlığı iqtisadi artım və regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan strateji əhəmiyyətli istiqamətdir: "Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollara, Qazaxıstanın isə Azərbaycana sərmayəsi 136 milyon dollara çatıb. Bu göstəricilər tərəflərin uzunmüddətli tərəfdaşlığa və davamlı inkişafa qarşılıqlı marağını nümayiş etdirir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Hər iki ölkənin lideri dünyanın siyasi nizamını düzgün qiymətləndirən dövlət xadimidir"

Prezident İlham Əliyevin oktyabrın 20-21-i Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə dost ölkəyə dövlət səfəri iki ölkə arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcı olacaq. Bunu təsdiq edən amillər çoxdur.

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev dövlət səfəri ərəfəsində Qazaxıstan mətbuatına eksklüziv müsahibə verdi. Yeri gəlmişkən, burada qeyd olunmalı bir məqam da odur ki, iki ölkənin mətbuat agentliyi arasında son zamanlarda nəzərəçarpan əməkdaşlıq formatları yaranmışdır. Bunu Mərkəzi Asiya dövlətlərindən olan Özbəkistanla da görmək olur ki, bu da münasibətlərin daha dayanıqlı inkişafından, informasiya məkanında etimad mühitinin dərinləşməsindən xəbər verir. "Məhz bu amil indiki informasiya burulğanında lazım olan məsələdir. İkincisi, bütün mürəkkəb siyasi kombinasiyaların mövcudluğunda belə Qazaxıstanla Azərbaycan əks qütblərdə yer almadılar. Zamanında elə məqam oldu ki, Qazaxıstanla Azərbaycan üz-üzə qoyulmağa çalışıldı. Lakin hər iki dövlət başçısının siyasi iradəsi, mütəmadi təması nəticəsində buna imkan verilmədi. Azərbaycan və Qazaxıstan liderləri dünyanın siyasi nizamını düzgün qiymətləndirən dövlət xadimləridirlər. Zəngin təcrübə hər iki dövlətin beynəlxalq münasibətlər sistemində oturuşmuş mövqedə olmasında önəmli rola malikdir. Son zamanlarda həm Prezident İ.Əliyevin, həm Prezident K.Tokayevin ritorikasına nəzər yetirmək kifayətdir ki, münasibətlərimizin get-gedə inkişaf edəcəyi, daha da dərinləşməsi haqqında aydın təsəvvür yaransın", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, əlaqələrin hərtərəfli şaxələndirilməsi prezidentlər, dövlət və hökumət institutları qədər cəmiyyətlərimizin də marağındadır. Mərkəzi Asiya dövlətləri ilə hərtərəfli inteqrasiya prosesinin başlaması hüquqi əsaslandırma tələb edir ki, Azərbaycanla Qazaxıstan arasında imzalanan "Strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında" müqavilə buna zəmin yaradır. Sözügedən sənəd əməkdaşlığının müxtəlif sahələr üzrə inkişafının etibarlı bazisini təşkil edir. Bundan əlavə, Azərbaycan - Qazaxıstan əlaqələri həm ikitərəfli konktekstdə, həm Türk Dövlətləri Təşkilatı çərçivəsində, həm də digər təşkilatlar daxilində inkişaf edir. Vaxtilə Qazaxıstanla münasibətlər sadəcə ortaq tarix, dil, mədəniyyət üzərindən inkişaf edirdisə, bu gün Türk Dövlətləri Təşkilatının daha da güclənməsi, regionun siyasi iqtisadi konfiqurasiyasının dəyişməsi nəticəsində həm Azərbaycan, həm də Qazaxıstan üçün vacib olan təhlükəsizlik məsələləri müzakirə olunur. Bu amilin özü hər şeydən öncə tam müstəqil siyasətin təzahürüdür.

A.Badamov diqqətə çatdırıb ki, Vaşinqtonda imzalanmış sənədlərin ardınca reallaşdırılacaq "Beynəlxalq sülh və rifah üçün TRIPP marşrutu" da nəzərə alınaraq TDT-nin sayca XII Zirvə görüşünün sülh və təhlükəsizlik mövzusu üzərində qurulması zamanında verilmiş çox düzgün qərardır: "Deməli, gündəliyimiz sülh gündəliyi, fəaliyyətimizin əsası isə iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi ilə böyük bir coğrafiyanı əhatə edəcək siyasət nəticəsində xalqların rifah halının daha da yaxşılaşdırılmasıdır. Reallaşdırılan layihələr həm Qazaxıstanın, həm Azərbaycanın, həm də bütövlükdə Avrasiyanın iqtisadiyyatının genişlənməsinə gətirib çıxaracaq".



Deputat əlavə edib ki, hər iki ölkə modernləşməyə, iqtisadiyyatın diversifikasiyasına, islahatlar paketinin davamlı qaydada xalqa xeyir gətirməsinə fokuslanıb. İki ölkə lideri arasında davamlı təmaslar zamanı tətbiq edilən təcrübənin qarşılıqlı surətdə mübadiləsi bir-birinə etimaddan xəbər verir. Azərbaycan üçün Qarabağ və Şərqi Zəngəzurun bərpası son dərəcə həssas məsələdir. Bu xüsusda qeyd etməliyik ki, Qazaxıstanın işğaldan azad edilmiş Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisini reallaşdırması Azərbaycan xalqının qəlbini fərəhləndirdi.

Azər Badamovun sözlərinə görə, münasibətlərimiz sadəcə siyasi və iqtisadi sahə ilə məhdudlaşmır. İnvestisiya layihələrinin artırılması dövlətlərimiz qədər, biznes dünyasının da marağındadır. Burada isə hər bir investoru yaxından maraqlandıran amil etimad mühitinin mövcudluğudur ki, məhz bu da qarşılıqlı sərmayə təşəbbüslərini təşviq edir. Mədəni-humanitar sahələr üzrə davam edən əməkdaşlıq mexanizmləri cəmiyyətləri bir-birinə yaxınlaşdırır: "Bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və iqtisadi qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır. İqtisadi əlaqələrimizdə davamlı artım müşahidə edirik. Belə ki, 2024-cü ilin statistikası göstərir ki, Azərbaycanla Qazaxıstan arasında əmtəə dövriyyəsi 470 milyon dollar dəyərindədir. Bu statistik rəqəm 2025-ci ilin yanvar-avqust aylarında müvafiq olaraq daha öncəki illə müqayisədə 547 milyon dollar olub. Bu, üç dəfə artım deməkdir. Orta dəhlizin potensialından istifadə, nəqliyyat və logistika infrastrukturunun rəqəmsallaşdırılması amili bu artımda əhəmiyyətli rol oynayır. İki ölkə arasında davamlı investisiya qoyulmasının şahidiyik ki, bu da iqtisadiyyatlarımızın dinamik inkişafı deməkdir. Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollar, Qazaxıstanın isə Azərbaycana sərmayəsi 136 milyon dollar dəyərindədir".

Deputat deyib ki, Qazaxıstanla Azərbaycanı birləşdirən Xəzər dənizinin dayazlaşması məsələsi ümumi marağımızda olan məsələ qədər, resursların effektiv idarə olunması baxımından da xüsusi önəm kəsb edir. Xəzəri qorumaq bütün Xəzəryanı dövlətləri dərindən maraqlandırmalıdır. Bu istiqamətdə sistemli və koordinasiyalı fəaliyyət ortaya qoymaq lazımdır. Əgər iqtisadiyyatlarımızın şaxələndirilməsinə fokuslanmışıqsa, digər yandan risklərin azaldılmasına da çalışmalıyıq. Risk amili ətrafında Xəzərlə bağlı da düşünülməlidir. Xəzərin təhlükəsizliyinin təmin olunması bir daha ondan xəbər verir ki, təhlükəsizlik amili modern çağımızda yalnız hərbi komponentlə məhdudlaşmır. Qarşıda bizi ortaq çağırışlar gözləyir. Bu çağırışlara effektiv cavab verilməsində Qazaxıstan-Azərbaycan əməkdaşlığı yaxşı bir model ola bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Humanitar diplomatiya



## Dünya mədəni və dini irsinin qorunmasına Azərbaycanın növbəti töhfəsi

### Birinci vitse-prezident Mehriban Əliyeva nəcib təşəbbüsləri ilə ölkəmizdən kənarda da yüksək hörmət qazanıb

**Şərqlə Qərbin arasında tarixən iqtisadi, siyasi, elmi və mədəni körpü rolu oynayan Azərbaycan bu sivilizasiyaların həm də vəhdətinin bariz nümunəsidir. Ölkəmiz əsrlərdir ki, multikulturalizm və dini tolerantlıq ənənələrinə sadiqliyi ilə dünyada təqdir olunur. Azərbaycan bir çox millətlərin və konfessiyaların dinc, yanaşı yaşamasının unikal nümunəsi kimi bütün dünyada tanınır.**

Dünyanın ən qədim xalqlarından olan, zəngin tarixi, özünəməxsus mədəniyyəti, milli-mənəvi dəyərləri ilə seçilən Azərbaycan xalqına xas əsas cəhətlərdən biri də xeyirxahlıqdır.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə ölkəmizin, xalqımızın belə yüksək tarixi ənənələrə, zəngin milli-mənəvi dəyərlərə malik dövlət kimi beynəlxalq aləmdə tanıdılmasında böyük rol oynayır. Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri də bu baxımdan olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri, eyni zamanda ölkəmizimin multikulturalizm siyasətinə və dini tolerantlığa verdiyi önəmin daha bir nümunəsidir.

Mehriban xanım Əliyeva qlobal təşəbbüsləri ilə dünya miqyasında tanınır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uzun illərdir ki, həyata keçirdiyi tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən çoxsaylı layihələri yalnız ölkəmizlə məhdudlaşmır. Respublikamızın sərhədlərindən kənarda da Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bu istiqamətdə təqdirəlayiq işlər görür. Bunlardan biri də Vatikanda mədəni və dini irsin qorunmasına verilən töhfələrdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə artıq on ildən çoxdur ki, Vatikanda mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa olunur. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın nəcib təşəbbüsü ilə Vatikanda bəşəri əhəmiyyət daşıyan bir sıra tarixi abidələrin bərpası, mədəni irsin qorunması sahəsində aparılan işlər yüksək səviyyədə davam etdirilib. Uğurlu nəticələr artıq göz qabağındadır. Belə ki, Heydər Əliyev Fondunun dəstəyi sayəsində ötən illər ərzində Vatikanda Müqəddəs Marçellinio və Pietro katakombalarının, Müqəddəs Pyotr Kilsəsində "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin bərpası, Müqəddəs Sebastian Bazilikasında yeni muzeyin yaradılması, sarkofaqların restavrasiyası və digər layihələr reallaşdırılıb. Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsi də bu qəbildəndir. Qeyd edək ki, Müqəddəs Kommodilla katakombalarında qorunan ən mühüm abidələrdən ikisi olan Müqəddəs Feliks və Adauktusun yeraltı bazilikasındakı freskalarında və Leo kubikulundakı freskalarda bərpa işləri tamamlanıb.

Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfərə gedən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyeva bərpa edilən abidələr və incəsənət nümunələri ilə tanış olub, Vatikanda bir sıra mühüm görüşlər keçirib.

Oktyabrın 16-da Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakabone, Vatikan Dövlətinin Mədəniyyət üzrə Pontifik Şurasının sabiq prezidenti Kardinal Canfranko Ravazi və digər rəsmi şəxslərin iştirakı ilə Vatikanda Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılışı olub.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini vurğulayıb. O, bu layihənin həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu diqqətə çatdırıb. Müqəddəs Marçelino və Pietro, eyni zamanda Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını bildirib: "Heydər Əliyev Fondunun dəstəyi ilə bir tərəfdən mürəkkəb, lakin digər tərəfdən bizi çox ilhamlandıran, böyük enerji verən bərpa işlərini birgə həyata keçirdik".

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi ölkəmizə səmimi və dərin dostluq telləri ilə bağlı olduğunu, Azərbaycana üç dəfə səfər etdiyini, səfərlər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və məhz onun qərarı ilə Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü deyib. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən də danışıb: "Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpaolunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq. Görülmüş işlərə görə Birinci vitse-prezidentə dərin təşəkkürümü bildirirəm".

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca növbəti səfərindən böyük şərəf hissi duyduğunu bildirib. Heydər Əliyev Fondunun prezidenti bunun son 14 ildə Vatikana altıncı səfəri olduğunu qeyd edib.

Ölkəmizin əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu qeyd edən Mehriban Əliyeva vurğulayıb ki, bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir: "Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

Həm Vatikanda, həm də Azərbaycanda bu layihələrdə əməyi olan şəxslərə dərin minnətdarlığını ifadə edən Mehriban xanım Əliyeva deyib: "Heydər Əliyev Fondu olaraq gələcəkdə əməkdaşlığımızı davam etdirməyə maraqlıyıq və hazırıq. İnanıram ki, bu fəaliyyət davamlı olacaq".

Qeyd edək ki, Heydər Əliyev Fondunun uzun illərdir ki, həyata keçirdiyi layihələr Azərbaycanın dünya mədəni və dini irsinə, o cümlədən multikulturalizm və dinlərarası dialoq ideyalarına dəstəyinin təzahürüdür.

Birinci vitse-prezident Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlər ölkəmizin dini konfessiyalararası qarşılıqlı anlaşma və əməkdaşlıq ideyalarına sadiqliyini bir daha nümayiş etdirib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrində yeni səhifə

Müxtəlif mədəniyyətlərin və dinlərin qovşağında yerləşən Azərbaycanın sülh, humanizm, tolerantlıq kimi bəşəri dəyərlərə münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə də özünü aydın göstərir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu istiqamətdə təşəbbüs və səyləri ilə həyata keçirilən böyük əhəmiyyətə malik işlər həm də ölkəmizin sivilizasiyalararası dialoqlara, mədəniyyətlərə verdiyi töhfələri kimi qiymətləndirilməlidir.



### Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfəri Heydər Əliyev Fondunun bəşəri dəyərlərə xidmət missiyası ilə müşayiət olundu

Mehriban Əliyevanın rəhbərlik etdiyi və hər zaman bütün dinlərə xüsusi diqqət göstərməsi ilə seçilən Heydər Əliyev Fondu vaxtilə Luvr muzeyində islam mədəniyyəti bölməsinin təşkili, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılması, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı, o cümlədən irimiqyaslı layihələrdən olan Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası kimi nəcib əməlləri ilə dünyada böyük əks-səda doğurub.

Oktyabrın 16-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri də ölkəmizin humanitar diplomatiyasının növbəti mərhələsini təşkil etdi. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın bu səfəri Vatikan-Azərbaycan arasında dostluq əlaqələrinin daha da dərinləşməsi baxımından vacib əhəmiyyət daşıdı.

#### Azərbaycan sivilizasiyalararası dialoqa böyük töhfə verir

Birinci vitse-prezident Mehriban Əliyevanın səfər zamanı Vatikanda dövlət xadimləri ilə səmərəli görüşləri Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrinin inkişafı baxımından mühüm hadisə oldu.

Oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşü zamanı Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb. Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Öz növbəsində Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Mehriban Əliyeva səfər çərçivəsində Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib.

Oktyabrın 17-də Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü zamanı Azərbaycanın dini tolerantlıq və multikulturalizm dəyərlərini özündə birləşdirən ölkə olduğunu diqqətə çatdıran Mehriban Əliyeva bunun həm dövlət siyasəti, həm də cəmiyyətimizin yaşayış tərzi olduğunu vurğulayıb. Birinci vitse-prezident Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində Heydər Əliyev Fondu tərəfindən görülən işlər barədə danışaraq, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirib.

Azərbaycanda fəaliyyət göstərən katolik icması ilə dövlət arasında nümunəvi münasibətlərin mövcud olduğunu diqqətə çatdıran kardinal, dövlətlərimizin əməkdaşlığının möhkəmləndirilməsinin önəmini vurğulayaraq deyib: "Bakıda ikinci katolik kilsəsinin tikilməsi çox təqdirəlayiq haldır, buna görə Azərbaycana minnətdarıq. Bu, bir daha ölkənizdə bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürüdür. Azərbaycan bu mənada bir çox ölkələr üçün nümunədir".

Dövlət katibi Pietro Parolin avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ tərəfindən Birgə Bəyannamənin imzalanması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib, Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini bildirib.

Oktyabrın 17-də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşüb.

Görüşdə Raffaella Petrini Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrə görə Azərbaycan dövlətinə dərin və səmimi təşəkkürünü bildirib.

#### Dünyəvi irsə verilən yüksək dəyər

Vatikana rəsmi səfər proqramı xeyli zəngin olan Birinci vitse-prezident Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilən bərpa işləri ilə tanış olub.

Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə maraqlanıb.

Mehriban Əliyeva həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olub.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında olub və burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə maraqlanıb.

Oktyabrın 17-də Mehriban Əliyeva Vatikan Apostol Kitabxanasında olub. Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Birinci vitse-prezident Mehriban Əliyevaya Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi arasında bu yaxınlarda imzalanmış Anlaşma Memorandumu çərçivəsində bərpaolunan və rəqəmsallaşdırılan tarixi əlyazmalar, həmçinin tarixi mənbələr haqqında məlumat verib.

Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə birgə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər.

Azərbaycan tərəfinin Müqəddəs Taxt-Taca hədiyyəsi olan və ölkəmizdən gətirilən nar ağacı respublikamızda həyat mənbəyinin, ailə bütövlüyünün, bolluğun və məhsuldarlığın rəmzi kimi qəbul edilir. Bildirilib ki, bir çox faydalı xüsusiyyətlərə malik olan nar mədəniyyətimizin müxtəlif aspektlərində geniş istifadə olunur.

Tarixi, memarlıq və dini baxımdan böyük əhəmiyyətə malik Vatikan bağlarında əkilən nar ağacı Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluğu və əməkdaşlığı təcəssüm etdirəcək.

#### Dinlərarası anlaşma və mədəniyyətlərarası dialoqa sadiqlik

Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikanda Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirakı, Müqəddəs Pavel Bazilikasında keçirilən bərpa və tikinti işləri ilə, o cümlədən Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olması Azərbaycana xas bəşəri irsin qorunması missiyasının Müqəddəs Taxt-Tacdan bir daha dünyaya nümayişi oldu.

Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməsi dünya mədəni irsinə növbəti töhfələrdir. Və Mehriban xanımın bu nəcib əməlləri təkcə Vatikanda deyil, beynəlxalq ictimaiyyət arasında böyük rəğbət doğurur.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikan səfəri barədə "X" hesabında paylaşım edib. Prezidentin köməkçisi Birinci vitse-prezident Mehriban Əliyevanın səmərəli görüşlərinin, o cümlədən Roma Papası XIV Leo ilə görüşünün Azərbaycanın dinlərarası anlaşma və mədəniyyətlərarası dialoqa sadiqliyini nümayiş etdirdiyini bildirib.

Hikmət Hacıyevin sözlərinə görə, Azərbaycanın katolik xristian irsinin bərpasına verdiyi dəstək və bu sahədə uzunmüddətli əməkdaşlığı ölkənin tolerantlıq və qarşılıqlı hörmət prinsiplərinə sadiqliyini təsdiqləyir. O qeyd edib ki, müsəlman əhalinin çoxluq təşkil etdiyi, eyni zamanda xristian, yəhudi və digər dinlərin nümayəndələrinin dinc yanaşı yaşadığı dünyəvi Azərbaycan bu gün inklüzivlik, dözümlülük və multikultural harmoniyanın parlaq nümunəsidir: "Qadınların gücləndirilməsi və bərabər imkanların təminində mühüm təcrübəyə malik Azərbaycan Cənubi Qafqazı sülh və sabitlik məkanına çevirərək, qlobal miqyasda sülh, dialoq və əməkdaşlığa əsaslanan müsbət gündəliyi irəli aparır".

Bir sözlə, Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfəri fərqli dinlərə və mədəniyyətlərə mənsub insanların harmoniya içərisində yaşadığı və sülhün təşviq olunduğu unikal məkan kimi dünyada adından söz etdirən Azərbaycanın bəşəri dəyərlərin yaşadılmasına, dünyada barışa, dostluğa, tolerantlığa, multikulturalizmə xidmət edən missiyasının vacib məqamı kimi diqqət çəkdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Dövlət Gömrük Komitəsində görüş



Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İran İslam Respublikasının ölkəmizdəki səfiri Moctəba Dəmirçilu ilə görüşüb.

Görüşdə iki ölkənin gömrük xidmətləri arasındakı münasibətlərdən, iqtisadi əlaqələrin gücləndirilməsi, qarşılıqlı ticarət dövriyyəsinin artırılmasında gömrük orqanlarının rolundan bəhs edilib. Həmçinin bir müddət bundan öncə Bakıda keçirilən Azərbaycan, Rusiya və İran arasında nəqliyyat, energetika və gömrük sahələrində əməkdaşlıq məsələlərinə həsr olunan görüşdə müzakirə olunan gömrük məsələlərinə aid mövzular ətrafında fikir mübadiləsi aparılıb, hər iki ölkənin ərazisindən keçən nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılması, beynəlxalq ticarətin və tranzitin asan, sürətli şəkildə həyata keçirilməsi, xüsusilə məlumat mübadiləsinin gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

# BMU-da İsrailin kibertəhlükəsizlik üzrə tanınmış alimi ilə görüş olub



Bakı Mühəndislik Universitetində (BMU) İsrailin Təl-Əviv Universitetinin Kibermüqavimət laboratoriyasının müdiri, Blavatnik İnterdisiplinar Kibertədqiqat Mərkəzinin elmi rəhbəri, tanınmış kibertəhlükəsizlik üzrə mütəxəssis professor Lior Tabanski ilə görüş keçirilib.

BMU-dan AZƏRTAC-a bildirilib ki, rektor Yaqub Piriyev öncə universitet haqda qonağa məlumat verib. İnformasiya texnologiyaları (IT) ixtisaslarının inkişafı yönündə görülən işləri ayrıca vurğulayan rektor qeyd edib ki, rəqəmsallaşma dövründə bu sahə müasir mühəndislik təhsilinin əsas istiqamətlərindən biridir və beynəlxalq təcrübənin də yaxından öyrənilməsi universitet üçün prioritet təşkil edir. BMU-nun IT sahəsində yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını qarşıya əsas məqsəd kimi qoyduğunu vurğulayan Yaqub Piriyev bunun üçün həm tədris proqramlarının müasirləşdirilməsi, həm də beynəlxalq tərəfdaşlarla birgə elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi istiqamətində addımlar atıldığını söyləyib. Rektor BMU-da ötən il fəaliyyətə başlayan İnformasiya və kompüter texnologiyaları fakültəsi, BP ilə birgə qurulan Kibertəhlükəsizlik laboratoriyası, habelə Çin və Cənubi Koreyanın aparıcı universitetləri ilə gerçəkləşdirilən ikili diplom proqramları barədə də qonağı məlumatlandırıb. İsrailin qabaqcıl təcrübəsinin, Təl-Əviv Universitetinin elmi nailiyyətlərinin BMU üçün böyük maraq doğurduğunu vurğulayan Yaqub Piriyev bu baxımdan kibertəhlükəsizlik üzrə tanınmış alim Lior Tabanski ilə əməkdaşlıq məsələlərinə diqqət çəkib.

Nüfuzlu beynəlxalq qurumlar çərçivəsində, o cümlədən dünyanın müxtəlif universitetlərində keçirilən konfrans və ekspert qruplarında məruzələr edən Lior Tabanski isə çıxışında kibertəhlükəsizlik strategiyasının formalaşmasında toplanmış uğurlu təcrübəsini bölüşüb. BMU ilə əməkdaşlıq potensialını yüksək qiymətləndirən İsrail alimi universitetin gənc tədqiqatçılar üçün yaratdığı müasir innovasiya mühitini təqdir edib.

# Məhkəmələrə hakimlərin təyin edilməsi və vəzifələrinin dəyişdirilməsi ilə bağlı təqdimatlara baxılıb




Oktyabrın 21-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Əli Hüseynli bildirib ki, gündəliyə 8 məsələ daxil edilib. Gündəliyin ilk 5 məsələsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Ali Məhkəməyə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və regional apellyasiya məhkəmələrinə hakimlərin təyin edilməsi və vəzifələrinin dəyişdirilməsi ilə bağlı təqdimatlardan ibarətdir.

Daha sonra Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Kərəm Mansurov şura tərəfindən son dövrlərdə görülən işlər, eləcə də məhkəmə-hüquq sistemində həyata keçirilən genişmiqyaslı islahatlar barədə məlumat verib. O, bu il Məhkəmə-Hüquq Şurasında Hakimlərin I Forumunun, şuranın 20 illik yubileyinə həsr olunmuş tədbirin və digər mühüm görüşlərin keçirildiyini qeyd edib.

Bildirilib ki, namizədlikləri irəli sürülmüş hakimlərin peşəkarlığı və iş təcrübəsi nəzərə alınaraq, ümumilikdə 11 hakimlə bağlı məsələlər müzakirəyə təqdim olunub. Onlardan 2 nəfərin Azərbaycan Respublikası Ali Məhkəməsinə, 5 nəfərin Bakı Apellyasiya Məhkəməsinə, 2 nəfərin Gəncə Apellyasiya Məhkəməsinə təyinatı nəzərdə tutulub. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi hakimlərinin iş yerlərinin dəyişdirilməsi müzakirəyə təqdim olunan sənəddə öz əksini tapıb.

Sonra komitə sədri ikinci oxunuşda olan gündəliyin növbəti 3 məsələsini - "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında", "Dövlət qulluğu haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə qanun layihələrini təqdim edib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, üzvləri Bəhruz Məhərrəmov, Azay Quliyev və Erkin Qədirli çıxış edərək təqdim olunan qanun layihələri ilə bağlı fikirlərini bölüşüblər, təklif və qeydlərini səsləndiriblər.

Onlayn iclasın sonunda təqdim edilən qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Məhkəmə Ruben Vardanyanın vəkildən imtina etməsi barədə vəsatətini təmin edib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 21-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyan məhkəməyə müraciət edərək müdafiəçisi Avraam Berman ilə konfidensial görüşmək istədiyini deyib.

Məhkəmə vəsatəti təmin edib və prosesdə qısa fasilə elan olunub.

Fasilədən sonra təqsirləndirilən Ruben Vardanyan digər vəsatətini məhkəməyə təqdim edərək müdafiəçisi Avraam Bermandan imtina etdiyini deyib.



Təqsirləndirilən şəxs vəsatətini əsaslandıran zaman əvvəlki məhkəmə iclaslarında səsləndirdiyi fikirləri təkrar edərək bildirib ki, ümumilikdə məhkəmə prosesindən narazı olduğu üçün müdafiəçisindən imtina edir.

Müdafiəçi Avraam Berman vəsatəti təmin edib-etməməyi məhkəmənin mülahizəsinə buraxdığını qeyd edib.

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev dedi ki, təqsirləndirilən şəxs müdafiəçisindən hansı səbəbdən imtina etdiyini bildirməyib, buna baxmayaraq, onun müdafiəçisindən imtina etmək hüququ var. Nəzərə almaq lazımdır ki, təqsirləndirilən şəxs qanunvericiliyin tələblərinə görə, ümumiyyətlə, müdafiəçidən imtina edə bilməz. Hazırkı vəziyyətdə Ruben Vardanyan müdafiəçisi Avraam Bermandan imtina edirsə, o, başqa bir vəkillə müqavilə bağlamalı, yaxud buna vəsaiti yoxdursa, dövlət tərəfindən hüquqlarını müdafiə edən başqa bir vəkil təyin olunmalıdır.

Ruben Vardanyan digər bir vəkillə müqaviləsinin olmadığını bildirib və qeyd edib ki, dövlət tərəfindən ona müdafiəçi təyin edilə bilər, buna dair hər hansı etirazı yoxdur.

Məhkəmə tərəflərin fikirlərini dinlədikdən sonra yerində müşavirə edərək, qərar qəbul edib.

Qərara əsasən, Ruben Vardanyanın müdafiəçisi Avraam Bermandan imtinası qəbul olunub. Təqsirləndirilən şəxsin dövlət hesabına müdafiəçi ilə təmin olunması üçün qəbul edilən qərar Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına göndərilib.

Məhkəmə prosesi təxirə salınıb. Növbəti iclas isə oktyabrın 28-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

## 22 oktyabr 2020-ci il — ZƏFƏR gündəliyi

# İlham ƏLİYEV: "Azərbaycan-İran dövlət sərhədi tam nəzarətə götürülüb"

**Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.**

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək strateji yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlanması ilə bağlı məlumat yayılıb.

### Ermənistan ərazisindən Siyəzən, Qəbələ və Kürdəmirə ballistik raketlər atılıb



Səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub.

Düşmən tərəfindən saat 07:00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılıb.

Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Düşmənin raket hücumu nəticəsində tələfat olmayıb.

### Düşmənin könüllü döyüşçüləri atəş mövqelərini tərk edərək qaçıblar

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıblar.

Saat 09:15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonu ərazisindəki mövqelərimizi reaktiv artilleriya sistemlərindən atəşə tutublar.

### Prezident xalqa müjdəli xəbərlər verib


İlham Əliyev
Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

İlham Əliyev
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

İlham Əliyev
Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfidinli, Aşağı Rəfidinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstəlibəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev rəsmi "X" səhifəsində gün ərzində 3 paylaşım edib. İlk paylaşımında dövlət başçısı yazıb: "Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstəlibəyli, Dərzili kəndlərini işğaldan azad edib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezidentin növbəti müjdəli məlumatında qeyd edilib: "Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad edib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Dövlət başçısının üçüncü paylaşımında isə deyilib: "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!"

### Mehriban Əliyeva: "İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır"



Birinci vitse-prezident Mehriban Əliyeva "Trend" İnformasiya Agentliyinə müsahibə verərək deyib ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Əsgərlərimiz və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar:

"Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!"

### Ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelərə son məlumatlar verilib



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov tərəfindən ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirilib.

Brifinqdə qonaqlara Ermənistanın münaqişədə birbaşa iştirakı, Ermənistan ərazilərindən döyüş əməliyyatları zonasından aralıda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən rayonlarında yaşayan dinc əhalinin və mülki infrastrukturun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs razılığına əməl etməyərək açıq şəkildə onu pozması haqqında ətraflı məlumat verilib.

***Rəşad BAXŞƏLİYEV,***
*"Azərbaycan"*




# Hüquqi dövlət quruculuğunun mükəmməl nümunəsi

## Azərbaycan suveren hüquqlarına əsaslanaraq strateji hədəflərinə doğru inamla addımlayır

**Ötən əsrin 80-ci illərinin sonlarından etibarən SSRİ miqyasında, o cümlədən ittifaq respublikalarında milli özünüdərk düşüncəsinin, siyasi fəallığın yüksəlməsi prosesi başlandı. Həmin dövrdə sovet konstitusiyasının 6-cı maddəsində - yəni Kommunist Partiyasının rəhbər rolunu təsbit edən müddəada dəyişiklik aparıldı, prezidentlik institutu yaradıldı, çoxmandatlı əsasda xalq deputatları seçkiləri keçirildi.**

Bu addımlar imperiyanın dağılmasının qarşısını almağa yönəlsə də, real nəticə vermədi. Çünki qeyd edilən proseslər mahiyyət etibarilə Kremlin labüd süqut taleyi qarşısında vaxt udmaq, ictimai narazılığı nəzarətdə saxlamaq üçün apardığı təbliğat xarakterli tədbirlər idi. İttifaq rəhbərliyi "yenidənqurma", "demokratiya" və "aşkarlıq" şüarları ilə ictimai fikri manipulyasiya etməyə çalışır, M.Qorbaçovun ətrafında cəmləşmiş erməni mənşəli siyasi dairələr isə yaranmış vəziyyəti Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş separatçı planlarını həyata keçirmək üçün fürsət kimi görürdülər.

Xüsusilə, 1987-ci ilin noyabrında akademik Abel Aqambekyanın Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin məqsədəuyğunluğu barədə bəyanatı Ermənistan tərəfindən "Böyük Ermənistan" planının reallaşdırılması üçün siqnal kimi qəbul edildi. Bundan sonra Dağlıq Qarabağ və ətraf bölgələrdə etnik separatizmi təşviq edən mitinqlər başlandı və azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyasına, "türksüz Ermənistan" siyasəti ilə müşayiət olunan zorakılıq və qətliamlara start verildi. Beləliklə, "yenidənqurma" siyasəti Azərbaycanda nəinki sosial-iqtisadi inkişafı təmin etdi, əksinə, ölkəni ciddi etnik və siyasi böhranla üz-üzə qoydu. Azərbaycanın yeni rəhbərliyi isə Moskvadan göndərilən sifarişləri icra etmək metoduna üstünlük verdiyindən, bu proseslərə adekvat cavab verə bilmədi və ictimai-siyasi vəziyyət daha da gərginləşdi.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Xalq Deputatları Sovetinin sessiyasında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul edildi və bu müraciətdə vilayətin statusunun yenidən nəzərdən keçirilməsi tələb olundu. Sözügedən müraciət faktiki olaraq Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi məqsədi güdən separatist tendensiyaların hüquqi əsaslandırılması cəhdi idi. SSRİ rəhbərliyi isə məsələyə riyakar yanaşaraq ilk baxışda guya neytral mövqe tutsa da, əslində, Ermənistanın ərazi iddialarını dolayısı ilə təşviq edirdi.

1988-ci il iyunun 21-də DQMV Xalq Deputatları Sovetinin növbəti sessiyasında vilayətin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olundu. Məsələ ətrafında vəziyyət getdikcə gərginləşirdi, Moskva rəhbərliyi Azərbaycan SSR-in konstitusion hüquqlarını pozaraq 1989-cu il yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə DQMV-də "Xüsusi idarəetmə formasının tətbiqi" haqqında qərar qəbul etdi. Bu qərar əsasında SSRİ rəhbərliyinin nümayəndəsi Arkadi Volskinin başçılığı ilə "Xüsusi İdarə Komitəsi" (XİK) yaradıldı. XİK dövründə erməni silahlı qrupları təşkilatlanaraq silahlandırıldı, bunun müqabilində azərbaycanlıların özünümüdafiə vasitələri, yəni adi ov tüfəngləri müsadirə edildi, son nəticədə Azərbaycan rəhbərliyi bölgəyə real nəzarət imkanlarını tam itirdi.

SSRİ Nazirlər Sovetinin 1989-cu il 6 may tarixli qərarı ilə DQMV-də fəaliyyət göstərən idarə və müəssisələrin Azərbaycan SSR-in tabeliyindən çıxarılaraq birbaşa Moskvanın nəzarətinə verilməsi prosesi daha da mürəkkəbləşdirdi, bu dövrdə təkcə Xankəndi şəhərindən 14 min nəfərədək azərbaycanlı zorla çıxarıldı.

1989-cu il dekabrın 1-də isə Ermənistan SSR-in Ali Soveti "Ermənistan SSR ilə Dağlıq Qarabağın birləşdirilməsi haqqında" qərar qəbul etdi. Bu addım faktiki olaraq Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddialarının hüquqi müstəviyə keçirilməsi idi. DQMV rəhbərliyinin bu qərarı dəstəkləməsi prosesi daha da dərinləşdirdi.

1990-cı ilin yanvarın 15-də SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayəti və ona qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə isə sovet qoşunları Bakı şəhərinə - ermənilərin xalqımıza qarşı təcavüzkar davranışlarına, imperiya rəhbərliyinin ədalətsiz münasibətinə etiraz olaraq küçələrdə aksiyalara çıxmış əliyalın vətəndaşların üzərinə yeridildi. Hərbi müdaxilə nəticəsində 131 nəfər mülki şəxs qətlə yetirildi, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu. Bu hadisə Azərbaycanın siyasi tarixinə "Qara Yanvar" kimi yazıldı və ölkədə Moskva rəhbərliyinə qarşı kəskin ictimai etiraz dalğasını daha da gücləndirdi.

Həmin vaxt Moskvada yaşayan və imperiya rəhbərliyinin ağır təzyiqləri ilə üzləşən Ulu Öndər Heydər Əliyev faciənin səhəri günü oğlu İlham Əliyev ilə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi, heç bir təzyiq və təhdiddən, həbs olunmaq, hətta ölüm təhlükəsindən çəkinməyərək imperiya rəhbərliyinin, şəxsən M.S.Qorboçovun cinayətlərini bütün dünyanın gözləri önündə ifşa etdi.

Heydər Əliyevin həmin mətbuat konfransındakı çıxışı 20 Yanvar faciəsi haqqında ilk düzgün siyasi qiymət idi. Ovaxtkı Azərbaycan rəhbərliyi hələ bir müddət buna lazımi siyasi münasibət bildirməslər də, sonralar yenə də məhz Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra onun tələbi və təkidi ilə 20 Yanvar faciəsinə əsaslandırılmış siyasi qiymət verildi.

20 Yanvar faciəsindən sonra Kreml Dağlıq Qarabağda erməni silahlı birləşmələrinin tərk-silah olunmasına dair müəyyən epizodik addımlar atırdı. 1990-cı ilin mayın 22-də SSRİ Nazirlər Sovetinin qərarı ilə Dağlıq Qarabağın iqtisadi idarəçiliyi səlahiyyətləri Azərbaycan SSR-ə qaytarıldı. Bu, DQMV-də Azərbaycanın suveren hüquqlarının müəyyən dərəcədə bərpası kimi qiymətləndirilə bilərdi.

1990-cı il mayın 19-da Azərbaycan SSR Ali Sovetinin sessiyasında respublika tarixində ilk dəfə prezident institutu təsis olundu və Ayaz Mütəllibov ölkənin ilk prezidenti seçildi. Həmin ilin sentyabr ayında keçirilən Ali Sovet seçkilərində 360 deputat mandatından 30-u demokratik düşərgədən olan namizədlər qazandı.

Bu seçkilərin ən mühüm məqamlarından biri də Ümummilli Lider Heydər Əliyevin siyasi səhnəyə qayıdışı oldu. 1987-ci ildə ali dövlət vəzifələrindən istefaya göndərildikdən sonra Moskvada ciddi təqib və nəzarət altında yaşayan Ulu Öndər 1990-cı ilin iyul ayında çox çətinliklə Bakıya, daha sonra Naxçıvana qayıtdı. İyulun 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında onun yerli əhali ilə görüşü keçirildi. Mitinqdəki çıxışı zamanı Heydər Əliyev demişdi ki, Azərbaycan xalqı respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə aparacaqdır.

Ümummilli Liderin Azərbaycan Respublikasının 12-ci çağırış Ali Sovetinin 7 fevral 1991-ci ildə keçirilmiş birinci sessiyasındakı çıxışı da mühüm əhəmiyyətli tarixi sənəddir. Çıxışın tarixi mahiyyəti əsasən ondan ibarətdir ki, ilk dəfə olaraq burada 1988-ci ildən başlayaraq, Azərbaycanda baş vermiş siyasi hadisələrin düzgün qiyməti verilirdi.

Dahi lider Heydər Əliyev həmin çıxışında Azərbaycan torpaqlarının tarixən ermənilər tərəfindən ələ keçirilməsi faktlarına da toxunurdu. Qeyd edirdi ki, 1918-ci ildən Ermənistan Respublikasının Azərbaycan torpaqlarını fasilələrlə ələ keçirməsi nəticəsində Azərbaycan ərazisi 1918-ci ildəki 114 min kvadratkilometrdən 1990-cı ildə 86 min kvadratkilometrədək azalmışdır. Torpaq məsələsi Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində bundan əvvəl də müzakirə edilmişdi. Müzakirədə diqqətə çatdırılmışdı ki, 1929-cu ildən sonra Naxçıvan Muxtar Respublikasının ərazisindən 625 kvadratkilometr torpaq sahəsi, yəni 6 kənd Ermənistana verilmişdi. Bu da 62 min hektar kənd təsərrüfatına yararlı torpaq idi.

Ulu Öndər Ali Sovetin sessiyasındakı çıxışı zamanı torpaq məsələsinin xalqımızın tarixində əsas amal olduğunu vurğulayırdı: *"Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını və övladlarını qurban verməkdən çəkinməmişdir".*

Bu mülahizədən çıxış edərək Heydər Əliyev sessiyada təkcə Dağlıq Qarabağ məsələsinin yox, ümumən torpaq məsələsinin daha geniş planda qoyulması təşəbbüsünü irəli sürürdü. Həmin çıxışında Ümummilli Lider 1920-ci ildən Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabının aparılması, hansı dövrdə nə qədər torpaq sahəsinin verildiyinin müəyyən olunmasını təklif edirdi. Aradan keçən onilliklər, bu gün Qərbi Azərbaycandakı tarixi torpaqlarımız, zamanında o torpaqlardan deportasiya edilmiş soydaşlarımızın yurda qayıdışı məsələsinin aktuallaşdırılması Ulu Öndərin hər zamankı kimi o çıxışında da nə qədər haqlı olduğunu təsdiqləyir.

1991-ci il sentyabrın 3-də Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən, həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu. Ümummilli Liderin təşəbbüsü ilə hələ 1990-cı ilin 17 noyabrında Naxçıvan Ali Sovetinin sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərini götürdü, "Ali Sovet" sözlərini "Ali Məclis" sözləri ilə əvəz etdi. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı olması haqqında qərar qəbul etdi.

Naxçıvanda atılan bu addımlar tezliklə bütün Azərbaycan üçün nümunəyə çevrildi. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 5 fevral tarixli sessiyasında bir sıra tarixi qərarlar qəbul olundu. Dövlətin adı - "Azərbaycan SSR" dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiqləndi.

Ümummilli Liderin uzaqgörənliyini tarix bir daha sübuta yetirdi, 1991-ci ilin 30 avqustunda Azərbaycan Respublikası Ali Sovetinin sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə" qəbul etdi. Bu sənədin qəbul olunduğu növbədənkənar sessiyada Ulu Öndər Heydər Əliyev də Azərbaycanın müstəqilliyinin elan olunması ilə bağlı tarixi çıxış etdi. Belə bir bəyannamənin qəbulu ölkənin SSRİ tərkibindən çıxması və suveren dövlət kimi beynəlxalq hüquq subyektliyini bərpa etməsi yolunda atılmış siyasi-hüquqi addımlardan oldu.

Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlandı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edildi. Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapdı. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 1 noyabr tarixli fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Müstəqil Azərbaycanın tarixində xüsusi yer tutan bu qanunun əhəmiyyətini Ümummilli Lider Heydər Əliyev belə dəyərləndirirdi: *"Hesab edirəm ki, qanun demokratik prinsiplərə cavab verən, demokratik parlament yaratmaq üçün əsas olan və ümumiyyətlə, respublikamızda dövlət quruculuğu sahəsində apardığımız işlər sırasında çox görkəmli yer tutan sənəddir. Mən hesab edirəm ki, bu qanunun qəbul olunması respublikamızda dövlət quruculuğu sahəsində görülən işlərin bir mərhələsidir, addımıdır, bir irəliləyişdir".*

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Cənab İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və Konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 25 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlmiş, dövlətin təməlləri daha da möhkəmləndirilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də uğurlu antiterror əməliyyatı bu strateji hədəfin təminində Prezident-Ordu-Xalq həmrəyliyinin ən yaxşı nümunəsini ortaya qoydu. 44 günlük Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etdi. Beləliklə, suveren və müstəqil Azərbaycanın bütün ərazisində Ali Qanunun - Konstitusiyanın hüquqi qüvvəsi tam təmin edildi.

*Prezident cənab İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın dövlətçilik ənənələrinin daha da möhkəmləndirilməsi, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır.*

*Bu gün suverenliyini və ərazi bütövlüyünü təmin edən Azərbaycan Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir.*

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini,***
***tarix üzrə fəlsəfə doktoru***

# UNESCO-da "Bakıdan Belemə: İqlim fəaliyyəti üçün məlumatlı və davamlı cəmiyyətlərin qurulması" adlı konfrans keçirilib



Azərbaycan və UNESCO-nun birgə təşkilatçılığı ilə qurumun mənzil-qərargahında "Bakıdan Belemə: İqlim fəaliyyəti üçün məlumatlı və davamlı cəmiyyətlərin qurulması" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda COP29-un baş danışıqçısı və xarici işlər nazirinin müavini Yalçın Rəfiyev COP29-un əsas nailiyyətləri və Azərbaycan diplomatiyasının iqlimdə rolu haqqında danışıb. O, iqlim dəyişikliyi ilə mübarizədə təhsilin, elmin və mədəniyyətin əsas rolunu vurğulayıb. Y.Rəfiyev çıxışında Azərbaycanın UNESCO ilə uzunmüddətli və məhsuldar əməkdaşlığına toxunaraq bildirib ki, COP29 çərçivəsində birgə təşəbbüslər - iqlim təhsili, mədəniyyətin iqlim fəaliyyətində rolu və digər sahələrdə bu əlaqələr daha da möhkəmlənib.

"COP29 təkcə razılaşdırılmış sənədlərlə deyil, həm də bizim yanaşma tərzimizlə tarixə düşüb. Biz davamlı inkişafla iqlim tədbirlərini, maliyyə ilə ədaləti, elmlə icranı birləşdirdik", - deyə nazir müavini vurğulayıb.

Y.Rəfiyev bildirib ki, Azərbaycanın evsahibliyi etdiyi COP29 konfransı Bakı Maliyyə Məqsədi - əvvəlki maliyyə vədlərindən üç dəfə böyük olan və BMT-nin iqlim danışıqları tarixində ən böyük öhdəlik; Bakıdan Belemə Yol Xəritəsi (1.3T) - bu məqsədin həyata keçirilməsi üçün maliyyənin izlənməsi və tətbiqinə dair çərçivə sənədi; Paris Sazişinin 6-cı Maddəsi üzrə razılıq - karbon bazarlarının işə salınması və dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi; İtki və Zərər Fondu - iqlim fəlakətləri nəticəsində zərər çəkmiş ölkələrə yardım mexanizminin tam fəaliyyətə başlaması kimi bir sıra mühüm irəliləyişlərlə yadda qalıb.

COP29-un baş danışıqçısı, həmçinin qeyd edib ki, inkişaf etməkdə olan kiçik ada dövlətləri (SIDS) iqlim dəyişikliyinin ən çox təsir etdiyi ölkələrdir. COP29 zamanı Bakıda keçirilmiş SIDS Sammiti bu dövlətlərin diplomatik səylərinə verdikləri önəmi bir daha sübut edib. Azərbaycan bu ölkələrin narahatlığını qlobal gündəmə gətirməyə xüsusi diqqət yetirib.

Y. Rəfiyev "Bakıdan Belemə" anlayışının yalnız texniki keçid deyil, həm də məqsədlərin davamlılığı və ümumi məsuliyyətin təcəssümü olduğunu qeyd edib. O vurğulayıb ki, COP30-a gedən yolda Azərbaycanın liderliyi ilə formalaşan bu ruh - elmi əsaslı qərarlar, inklüzivlik və dialoq - gələcək üçün nümunə olacaq. Azərbaycan COP29-un sədrliyi ilə iqlim diplomatiyasında mühüm dönüş yaradıb və elmi biliklərə əsaslanan, inklüziv və nəticəyə yönəlmiş əməkdaşlıq modelini təşviq edib. UNESCO ilə birgə fəaliyyət bu istiqamətdə mühüm rol oynayıb.

Sonda Yalçın Rəfiyev Azərbaycanın beynəlxalq ictimaiyyətlə əməkdaşlıqda qətiyyətli qalacağını və iqlim fəaliyyətini davamlı təşviq edəcəyini söyləyib.

UNESCO-nun elm sektoru üzrə direktor müavini Lidia Brito çıxışında bildirib ki, "Bakıdan Belemə: İqlim fəaliyyəti üçün məlumatlı və davamlı cəmiyyətlərin qurulması" konfransı vaxtında təşkil edilib. Lidia Brito bu konfransın COP29 və COP30 arasında körpü rolu oynadığını vurğulayaraq, onun iqlim dəyişikliyinə daha çox məruz qalan SIDS ölkələrinə olan diqqəti bir daha nümayiş etdirdiyini deyib.

UNESCO-nun digər nümayəndələri çıxış edərək, iqlim dəyişikliyinin su ehtiyatları, ekosistemlər və buzlaqlar kimi həssas təbii sistemlərə təsirlərinin getdikcə daha ciddi və dağıdıcı olduğunu xatırladıblar. Vurğulayıblar ki, məhz bu çətinliklər fonunda UNESCO Azərbaycan COP29 sədrliyi ilə əməkdaşlıq edərək, "Bakıdan Belemə" adlı təşəbbüs çərçivəsində qlobal miqyasda dayanıqlığın artırılması və elmi əsaslı fəaliyyətin genişləndirilməsi məqsədi daşıyan yeni təşəbbüsləri təqdim edib.

Qeyd edilib ki, tədbirin məqsədi COP29-un elmi irsini qoruyaraq COP30 (Belem, Braziliya) konfransına keçidi təmin etmək, eyni zamanda UNESCO-nun su, biosfer, və krayosfer (buzlaqlar) sahəsindəki bilik və metodologiyalarını tətbiq etməklə davamlı cəmiyyətlərin formalaşdırılmasını dəstəkləməkdir.

Tədbirdə Azərbaycanın COP29 sədrliyi çərçivəsində UNESCO ilə əməkdaşlığı yüksək qiymətləndirilib. Xüsusilə də "İqlim Fəaliyyəti üçün Su Bəyannaməsi"nin, "Bakı Su və İqlim Dialoqu"nun su və iqlim əlaqələrinin davamlı şəkildə müzakirə olunmasına şərait yaratdığı vurğulanıb. Bildirilib ki, Azərbaycanın COP29 sədrliyi çərçivəsində irəli sürdüyü təşəbbüslər, onun COP29 zamanı elmi əsaslı və inklüziv yanaşma ilə iqlim fəaliyyətinə verdiyi töhfənin bariz nümunələridir.

UNESCO-nun rəhbərliyi ilə həyata keçirilən layihələr elmi araşdırmaları, təhsil vasitəsilə məlumatlılığı artırmağı və mədəni irsi qorumağı hədəfləyir. Təşkilat iqlimə davamlı gələcəyin qurulmasında təhsil, elm, informasiya və mədəniyyət sütunlarını birləşdirərək fəaliyyət göstərir.

Bu tədbir UNESCO-nun COP29-da gördüyü işləri təqdim etməklə yanaşı, Belemdə COP30 üçün fəaliyyət çərçivəsinin müzakirə olunmasına da zəmin yaradıb.

"Bakıdan Belemə" yalnız coğrafi deyil, həm də strateji və mənəvi bir keçid dövrüdür. UNESCO-nun və Azərbaycanın rəhbərliyi ilə iqlim dəyişikliyinə qarşı elmi əsaslı və davamlı cavablar formalaşdırılır. Bu təşəbbüslər sayəsində dünya yalnız siyasətlərdə deyil, praktikada da real dəyişikliklərə şahid olacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Könüllü DOST" proqramına daha 1,2 min şəxs cəlb olunub

**"Könüllü DOST" proqramına bu ilin yanvar-sentyabr ayları ərzində 35 min müraciət olub, 1,2 min şəxs proqrama cəlb olunub.**

Azərbaycanda könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olan bu proqramın "Gənc DOST", "Gümüşü DOST" (yaşlılar üçün), "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST", "DigiDOST" kimi altproqramları fəaliyyət göstərir.

Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, e-sistemlərdən istifadə və s. üzrə köməklik göstərir.

Onlar dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.

Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.

## "Aztelekom" beynəlxalq assosiasiyaya qoşulub

**"AZCON Holding"in şirkətlərindən olan "Aztelekom" MMC qlobal səviyyədə genişzolaqlı rabitənin inkişafına yönəlmiş təşəbbüsləri dəstəkləmək məqsədilə Ümumdünya Genişzolaqlı Əlaqə Assosiasiyasına (WBBA) üzv olub.**




Bu üzvlük "Aztelekom"un yalnız ölkə daxilində deyil, qlobal dünyada da texnoloji cəmiyyətin fəal iştirakçısına çevrildiyinin bariz nümunəsidir.

WBBA dünyanın müxtəlif ölkələrindən olan telekommunikasiya şirkətləri, texnologiya təminatçıları və tənzimləyici qurumları bir araya gətirən nüfuzlu platformadır. Assosiasiyanın əsas məqsədi genişzolaqlı internetin əlçatanlığını artırmaq, texnoloji innovasiyaları təşviq etmək və rəqəmsal inklüzivliyi gücləndirməkdir.

Qeyd edək ki, Azərbaycanda bu assosiasiyaya üzv seçilən ilk şirkət məhz "Aztelekom"dur.

"Aztelekom"un WBBA-da təmsil olunması şirkətə qlobal tərəfdaşlıq imkanları, ən son texnologiyalara çıxış, sənaye üzrə qabaqcıl biliklərin paylaşılması və rəqəmsal strategiyaların formalaşmasında iştirak kimi üstünlüklər qazandıracaq.

Xatırladaq ki, "Aztelekom" cari ilin may ayında qiqabit sürətli genişzolaqlı internet bağlantısının təmin edilməsində göstərdiyi yüksək nəticələrə görə WBBA-nın təltif etdiyi "Gigacity Champion" mükafatına layiq görülüb.

Son bir ildə "Speedtest Award for Fastest Fixed Network", "Best Practice of Home Broadband Development Award" və "Gigacity Champion" kimi beynəlxalq mükafatlarla təltif olunan "Aztelekom" ölkə tarixində bu üç mükafatı qazanan ilk sabit şəbəkə provayderidir.

# Orta aylıq əməkhaqqı 14,2, orta aylıq pensiya 22,6 dəfə artıb

## Bu, son 22 ilin yeganə sosial uğuru deyil

**Bu günlər İlham Əliyevin 2003-cü ildə ilk dəfə Prezident seçilməsinin 22-ci ili tamam oldu. Bu, özlüyündə adi tarix, sıradan ildönümü deyildi. Ötən 22 ildə ölkəmizin həyatında çox vacib hadisələr baş vermiş, dövlətimiz və xalqımız çox sınaqlardan çıxmışdır. Təkcə 30 illik Qarabağ probleminin və savaşının möhtəşəm Zəfərlə başa vurulmasını qeyd etmək yetər ki, həmin zamanın Azərbaycan üçün misilsiz əhəmiyyəti etiraf olunsun.**



Amma bu da hələ hamısı deyil. 22 ildə ölkənin sosial-iqtisadi həyatında da görünməmiş uğurlar qazanılmışdır. Müstəqil Azərbaycanın təməli Heydər Əliyev tərəfindən qoyulan iqtisadiyyatı xammal bazasından çoxşaxəli, ixracyönümlü sənaye müstəvisinə keçmiş, qeyri-neft sektoru prioritet istiqamət elan olunmuş, regionların tarazlı inkişafı təmin edilmişdir. Bütün bunlar təbii ki, əhalinin güzəranına, sosial güvənliyinə təsirsiz ötüşməmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qeyd etdiyimiz ildönümü ərəfəsində bu sahə üzrə əldə edilən nailiyyətləri bir daha xatırlatmışdır.

Beləliklə, 2003-cü ildən ötən dövrdə ölkə üzrə minimum aylıq əməkhaqqı 44,4 dəfə artırılaraq 400, minimum aylıq pensiya 16 dəfə artırılaraq 320 manata çatıb. Orta aylıq əməkhaqqı 14,2 dəfə artaraq 77 manatdan 2025-ci ilin 1 sentyabr tarixinə 1093,8, orta aylıq pensiya 22,6 dəfə artaraq 539, yaşa görə orta aylıq pensiya 23,1 dəfə artaraq 574 manata yüksəlib.

Prezident İlham Əliyevin tapşırığı əsasında 2018-2025-ci illərdə 5 sosial islahat paketi icra olunub. 4 milyondan çox vətəndaşı əhatə edən bu islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7,6 milyard manatdır. Beləliklə, 2018-ci ildən ötən dövrdə minimum əməkhaqqında 3,1, orta aylıq əməkhaqqında 2, əməkhaqqı fondunda 3,2, orta aylıq pensiyada 2,6, müavinət və təqaüd ödənişlərinə ayrılan illik vəsaitdə 5, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,5 dəfə, minimum pensiyada 3 dəfəyə yaxın artım baş verib. Pensiya ödənişlərinə ayrılan illik vəsait son 7 ildə 2 dəfə artaraq 7,2 milyard manatı ötüb. Bununla yanaşı, əlavə 10 yeni sosial ödəniş növü təsis olunub.

Son illər pensiya təminatına əlçatanlığın artırılması və hər kəsə yaxın sistem kimi qurulması üçün mühüm addımlar atılıb. Məsələn, 2019-cu ildən pensiya təyinatı proaktiv mexanizm üzərində qurulmaqla 2006-2018-ci illərdə fərdi hesabında hətta ən kiçik məbləğdə vəsait qeydə alınmış şəxsə 25 illik sığorta stajı hədiyyə edilir və müraciət etməsinə ehtiyac qalmadan elektron sistem üzərindən avtomatik olaraq yaşa görə pensiya təyin olunur. Eyni zamanda erkən dövrdə yaşa görə pensiya hüququ yaranan kateqoriyaların sırasının son illər əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilib.

Həssas kateqoriyaya aid şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlərlə təminatı proqramının icrası uğurla davam edir. Xüsusən möhtəşəm Zəfərdən sonra mənzillə təminat 5 dəfə genişlənib. Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6900, ümumilikdə ötən dövrdə 16 min mənzil verilib. Həmçinin müharibə bitdikdən sonra 567, ümumən ötən dövr ərzində isə 7800 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

Dövlət başçısının apardığı sosial islahatlar proqramının uğurlarından biri də 2019-cu ildən ölkəmizdə yaradılan DOST mərkəzləridir. Bu mərkəzlər dünyanın qabaqcıl təcrübələri sırasına daxil edilərək çoxsaylı beynəlxalq mükafatlara layiq görülüb. DOST modeli tərəfindən əhaliyə vahid platformadan 161 sosial xidmətin göstərilməsi, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunması hamını məmnun edir. Artıq Bakı və bölgələrimizdə 7 DOST Mərkəzi, "Smart DOST" xidmət məntəqəsi, DOST məntəqəsi, DOST filalı istifadəyə verilib. DOST mərkəzlərində ötən dövrdə 3,9 milyon vətəndaşa xidmət göstərilib. Bu xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsinin 98,6 faizə çatması DOST modelinin uğurlu bir islahat nümunəsu olduğunu göstərir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan, Cənubi Qafqazda ilk və ən böyük olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə əlilliyi olan şəxslərin, şəhid ailələri və aztəminatlı ailələrin üzvlərinin, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların və digər həssas qrupların yaradıcı potensialının inkişafına dəstək verir. Mərkəzdə benefisiarlara rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, xalçaçılıq, toxuma, bədii oyma, kulinariya, səhnə ifaçılığı və s. istiqamətləri üzrə təlimlər keçirilir, onlara sosial-pedaqoji və psixoloji dəstək xidmətləri göstərilir. Ötən dövrdə mərkəzdən və onun İsmayıllı və Bərdədəki filiallarından 800-dən çox şəxs istifadə edib.

Prezident İlham Əliyevin həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə diqqət və qayğısı nəticəsində ötən dövrdə sosial xidmət və reabilitasiya müəssisələri şəbəkəsi də xeyli genişlənib. Əlilliyi olan şəxslər üçün Peşə Reabilitasiya Mərkəzi, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi, Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, günərzi və icma əsaslı sosial reabilitasiya, sosial xidmət mərkəzləri şəbəkəsi, Sumqayıt, Şəki, Şirvan, Xaçmaz Naftalan, Lənkəran, Yevlax, Qəbələ, Şəmkir və digər bölgələrdə əlilliyi olan şəxslər üçün Reabilitasiya Mərkəzləri yaradılıb.

Dövlət başçısının tapşırığına əsasən son illər sosial xidmətlərin elektron texnologiyalar üzərində qurulması proqramı uğurla icra edilir. Artıq əmək və məşğulluq, sosial müdafiə üzrə xidmətlərin 90 faizdən çoxu rəqəmsallaşdırılıb. Sosial sahələr üzrə 60 proaktiv xidmət, 30-dan çox e-arayış xidməti yaradılıb və 2019-cu ildə ölkəmizin sosial reyestri olan "e-sosial" portalı, 2022-ci ildə vahid əmək münasibətləri platforması olan, həmçinin əmək münasibətlərində rəqəmsal kadr uçotuna keçidə imkan verən "Əmək və Məşğulluq" altsistemi işə salınıb. Təkcə ötən ildə əmək və məşğulluq, sosial müdafiə üzrə e-sistemlər üzərindən sorğu, müraciət və xidmət sayı 663 milyona çatıb. Onu da qeyd edək ki, DOST konsepsiyası və rəqəmsal xidmətlər 240-dan çox beynəlxalq mükafat və sertifikata layiq görülüb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Belarus Qarabağın və Şərqi Zəngəzurun bərpasında daha fəal iştirak etmək istəyir

**Azərbaycanla Belarus arasında qarşılıqlı hörmətə, etimada, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlıq mövcuddur. Zamanın sınağından çıxmış bu münasibəti hər iki tərəf yüksək qiymətləndirir. Bunlar öz növbəsində iqtisadi əlaqələrin genişlənməsinə də təkan verir.**



Prezident İlham Əliyevin dediyi kimi: "Əməkdaşlıq əlaqələri ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq bütün məsələləri əhatə edir". Keçən ilin may ayında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə rəsmi səfəri çərçivəsində imzalanan sənədlərə əsasən, ticarət, gömrük, turizm və idman, kənd təsərrüfatı, o cümlədən baytarlıq və bitki karantini, eləcə də bir sıra digər sahələrdə əməkdaşlıq xeyli şaxələnəcək. Ticarət dövriyyəsini iki dəfədən çox artırmaq hədəflənir. Bakı ilə Minsk, Gəncə ilə Qomel, Qəbələ ilə Qrodno arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma memorandumlarının imzalanması bu şəhərlərin sakinlərinin dostluğunu möhkəmləndirməklə yanaşı, sıx iqtisadi əlaqələrin yaranmasına da səbəb olacaq. Qarabağ və Şərqi Zəngəzur da belaruslu dostlarımızın diqqətindədir.

Belarus Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfəri uzun illər xatirələrdə yaşayacaq. Elə buradaca qeyd edək ki, Aleksanr Lukaşenko həmin ərazilərə səfər edən ilk qeyri-türk dövlət başçısıdır. "Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlər boyu, uzun illər yaddaşlarda qalacaq", - demişdi Lukaşenko bu səfəri zamanı. Bərpa və quruculuq işlərinə dəstək məqsədilə bölgəyə Belarus traktorları bağışlamışdı.

Prezident Lukaşenko dirçəliş dövründə Belarusun bizə dost kimi dəstək olacağını, Qarabağın və Şərqi Zəngəzurun yenidən tikilib qurulmasına qoşulacağını da bəyan etmişdi. Azad etdiyimiz ərazilərdə, xüsusilə aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və digər infrastruktur qurmağa, iş yerləri açmağa, yəni komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazır olduqlarını bildirmişdi.

Meşələrlə zəngin olan Belarusda taxta-şalban materialı boldur. Bu ölkədə taxta evlər tikmək təcrübəsi geniş yayılıb. Belarus dostlarımız Qarabağ və Şərqi Zəngəzur üçün də belə evlər qura biləcəklərini demişdilər. Belə ki, Belarusda bu evlərin ayrı-ayrı hissələri lazım olan ünvanlara gətirilir və bir həftə ərzində bünövrəsi üzərində tikilib quraşdırılır. Əgər uyğundursa, onlar bizim Qarabağda və Şərqi Zəngəzurda da bu cür evlər tikməyə hazır olduqlarını demişdilər.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə Belarus texnikasına xidmət göstərəcək servis mərkəzi yaradılır. Məlumdur ki, Azərbaycanın traktor parkının təqribən 80 faizi Belarus istehsalı olan maşınlardan ibarətdir. Gəncə Avtomobil Zavodu ilə Minsk Traktor Zavodu arasında əməkdaşlıq uğurla davam etdirilir. Bu günlərdə Bakıda keçirilən Azərbaycan-Belarus Biznes-Forumunun açılışında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı həmin məlumatı bir daha yada salıb. Qeyd edib ki, 2007-ci ildən Azərbaycanda 14 mindən çox Belarus traktoru və 3 minə yaxın yük maşını yığılıb. May ayında Gəncə və Minsk avtomobil zavodları arasında sərnişin-yük avtomobillərinin komplekt hissələrinin tədarükünə dair müqavilə imzalanıb. Eyni zamanda ehtiyat hissələrinin birgə istehsalı qurulur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında Belarus avadanlıqlarına xidmət göstərmək üçün servis mərkəzi yaradılır.

Mənzil tikintisi və bununla bağlı layihələrdən danışarkən isə T.Hacılı əlavə edib ki, mənzil fondunun bərpasında xarici tərəfdaşlarla, o cümlədən Belarus şirkətləri ilə müxtəlif tərəfdaşlıq modelləri işlənib hazırlanır. Eyni zamanda bildirilib ki, Belarus bazarında "İstisu" mineral içkisi təşviq edilir. Müqavilə imzalanıb, laboratoriya sınaqları və Avrasiya İqtisadi İttifaqı çərçivəsində qeydiyyat başa çatıb, birinci partiya artıq ixrac edilib.

Belarusun ölkəmizdəki səfiri Dmitri Pineviç isə jurnalistlərə açıqlaması zamanı bir daha bəyan edib: "Belarus Azərbaycanın azad edilmiş ərazilərinin bərpası və inkişafında fəal iştirak etməyə hazırdır".

Diplomat deyib: "Biz bir daha Azərbaycan xalqını ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edirik. Bu torpaqlarda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, yeni iş yerləri açılır, normal yaşayış üçün şərait yaradılır. Belarus bu prosesin bir hissəsi olmaqda maraqlıdır. Bu gün Belarus və Azərbaycan arasında qarşılıqlı ticarət və xidmət axını sabit şəkildə formalaşıb".

O, artıq belaruslu mütəxəssislərin Ağdam rayonunda fəaliyyət göstərdiyini, yaşayış qəsəbəsinin layihələndirilməsində və Ağdam Sənaye Parkında birgə layihələrdə iştirak imkanlarını nəzərdən keçirdiklərini bildirib.

Azərbaycan və Belarus arasında, ümumiyyətlə, iqtisadi əməkdaşlıqdan bəhs edərkən səfir Dmitri Pineviç bir daha vurğulayıb: "Prezidentlərimizin qardaşlıq münasibətləri əməkdaşlıq potensialını daha da artırır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





Dialoq məkanı

## ICAPP Asiya Mədəniyyət Şurası qarşılıqlı əməkdaşlıq üçün mühüm platformadır

**Gündən-günə gücünü, qüdrətini artıran, regionda söz sahibi olan Azərbaycan bu gün dünyanın iqtisadi, siyasi, humanitar mərkəzlərindən birinə çevrilib. Beynəlxalq səviyyəli müxtəlif tədbirlərə evsahibliyi etməsi ölkəmizə olan inamın, etimadın təsdiqidir.**



Xəbər verildiyi kimi, bu günlər ölkəmizdə Yeni Azərbaycan Partiyasının (YAP) evsahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 44-cü və ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbir iştirakçılarına müraciətində deyib: "Müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Bu şəraitdə mədəniyyət insanları və cəmiyyətləri ali bəşəri dəyərlər ətrafında birləşdirən və sosial inteqrasiyanı təşviq edən əvəzsiz amil kimi çıxış edir. Milli ənənələrin qorunması ilə yanaşı, dialoqa və qarşılıqlı anlayışa açıq olmaq müasir beynəlxalq münasibətlərdə ortaq gələcəyin kollektiv şəkildə formalaşdırılmasını şərtləndirir. Beləliklə, mədəniyyət qlobal sabitliyə töhfə verən mühüm alətə çevrilir".

ICAPP Daimi Komitəsinin 44-cü iclasında DK sədri Çunq Eu-yonq Komitənin 43-cü iclasından ötən dövr ərzindəki fəaliyyətinə ətraflı nəzər salaraq görülmüş işləri iştirakçıların diqqətinə çatdırıb, səmərəli əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb. Bundan sonra ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası öz işinə başlayıb. Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov isə çıxışında müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi geostrateji dəyişikliklər baş verdiyini diqqətə çatdırıb: "Dünyada hərbi-siyasi konfrontasiyaların, humanitar böhranların, dini və etnik müstəvidə bir çox ziddiyyətlərin yaşandığı bir dönəmdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan xalqlar arasında sabitlik və tərəqqi naminə dialoq prosesi ümumbəşəri dəyərlərin qorunması və ölkələrin təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir".

Tahir Budaqov ölkəmizin İkinci Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazandığı Zəfərdən də, əldə olunan uğurlardan da ətraflı söz açıb. Bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan ədalətli geosiyasi nizamın tərəfdarı olaraq beynəlxalq hüquq normalarına, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanan müstəqil və konstruktiv siyasət həyata keçirir. YAP Sədrinin müavini Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı bir araya gətirən ICAPP-ın səmərəli dialoqun genişləndirilməsi və çoxtərəfli əməkdaşlığın təşviqi üçün etibarlı platforma olduğunu da tədbir iştirakçılarının nəzərinə çatdırıb, ICAPP kimi mötəbər beynəlxalq platforma vasitəsilə müxtəlif ölkələrin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsinin son dərəcədə önəmli olduğunu bildirib.

ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının sabiq xarici işlər naziri Çunq Eu-yonq çıxışında qeyd edib ki, mədəniyyət sadəcə keçmişi əks etdirmir, eyni zamanda gələcəyimizi formalaşdıran dinamik qüvvədir. Sonra o, mədəni irsin qorunmasının və bu istiqamətdə fəaliyyətlərin təşviqinin cəmiyyətlərin inklüzivliyini effektiv şəkildə artıra biləcəyinə və sosial birliyi gücləndirəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli isə çıxış edərək ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının Bakıda keçirilməsinin ölkəmizə göstərilən etimadın və YAP-ın beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasının göstəricisi olduğunu bildirib. Deyib ki, bu qurum regional əməkdaşlığın və mədəni dialoqun inkişafında mühüm rol oynayır. Nazir daha sonra bildirib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət dövlətin beynəlxalq siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Azərbaycan həm öz zəngin mədəni irsini qoruyur, həm də müasir qlobal mədəni proseslərin fəal iştirakçısına, multikulturalizmin ünvanına çevrilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Multikulturalizm bizim dövlət siyasəti olmaqla yanaşı, Azərbaycanda bir həyat tərzidir".

ICAPP-ın baş katibi, Koreya Respublikasının Monqolustandakı və Portuqaliyadakı sabiq səfiri Oh Sonq ICAPP Asiya Mədəniyyət Şurasının Fəaliyyət qaydalarına dəyişiklikləri və büro üzvlüyünə namizədləri təqdim edib. Asiya Mədəniyyət Şurasının sədri seçilən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov şuranın 4-cü iclasının yekun hesabatını iştirakçılara təqdim edib. Bildirib ki, tədbir Asiyanın mədəni potensialının yalnız keçmişə deyil, gələcəyə yönəlmiş strateji imkanı olduğunu göstərdi: "Çıxışların ümumi təhlili onu deməyə əsas verir ki, mədəniyyət təkcə tarixi və irsi yaddaş deyil, həm də müasir dövrün iqtisadi və siyasi proseslərinə təsir edən vacib amildir".

Sonda çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Müsəlman Liqası Nəvazın üzvü Muşahid Hüseyn Sayed Azərbaycan ilə Pakistan arasında səmimi dostluq, qardaşlıq və çoxşaxəli əməkdaşlıq münasibətlərinin olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Bakıda keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası qarşılıqlı fikir mübadiləsi aparmaq və əməkdaşlıq etmək üçün mühüm platformadır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Üzeyir bəy Hacıbəylinin misilsiz irsinin qorunmasına töhfə

**BP şirkəti Azərbaycanın mədəniyyət tarixinin zirvəsində duran nəhəng şəxsiyyətlərdən biri, xalqın milli klassik musiqisinin və professional bəstəkarlıq məktəbinin banisi, ilk milli operanın müəllifi, görkəmli maarifçi, dramaturq və publisist Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyini Azərbaycan xalqı ilə birlikdə bayram etməkdən qürur duyur.**



Bu əlamətdar hadisə münasibətilə BP dahi bəstəkarın misilsiz irsinin qorunmasına töhfə olan xüsusi kitablar komplektinin nəşrinə dəstək verib.

Layihə Azərbaycanın mədəni irsinin, o cümlədən onun zəngin tarixinin və əsrarəngiz sənət xəzinəsinin təbliği və tədqiqinə dəstək istiqamətində BP-nin davamlı öhdəliyini əks etdirir.

Yeni nəşrlər dünən BP-nin Üzeyir bəy Hacıbəylinin xatirəsinə həsr edilmiş tədbirində ictimaiyyətə təqdim olunub. Tədbirdə həmçinin bəstəkarın şah əsərlərindən ibarət konsert proqramı da yer alıb.

Yeni təqdim olunan nəşrlər bunlardır: Üzeyir bəy Hacıbəylinin indiyə kimi çap olunmamış əsərlərindən ibarət nəşrlər komplekti (2 kitab); Bəstəkarın həyat və yaradıcılıq yolunu əks etdirən fotoalbom; Üzeyir bəy Hacıbəylinin Bakıdakı ev-muzeyi üçün məlumat kitabçası.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu nəşrləri təqdim etmək bizim üçün böyük şərəfdir. Bu, Üzeyir bəy Hacıbəylinin möhtəşəm irsinə və Azərbaycanın milli musiqisinə verdiyi əvəzsiz töhfələrə dərin ehtiramımızın ifadəsidir. Onun milli musiqimizin ruhu və nəfəsi ilə yoğrulmuş və dünya musiqi ritmləri ilə zənginləşdirilmiş, dərin sənət ustalığı və emosional dolğunluqla yaradılmış əsərləri bu gün də həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda insanları ruhlandırır. Ümid edirik ki, bu nəşrlər Üzeyir bəyin nəhəng irsinin və onun yalnız bir bəstəkar kimi deyi, həm də böyük alim və publisist kimi gələcək nəsillərin formlaşmasına zamansız təsir gücünün daim yaşamasına xidmət edəcək".

Ümumi dəyəri 127560 AZN (75035 ABŞ dolları) olan bu layihə "Azərnəşr" tərəfindən həyata keçirilib. Bu məbləğ yeni nəşrlərin toplanması, hazırlanması və çapını, həmçinin konsert proqramının təşkilini əhatə edir.

*"Azərbaycan"*

## Dövlət Akademik Filarmoniyasının kollektivi Şanxay Beynəlxalq İncəsənət Festivalında çıxış edib

**Çin Xalq Respublikasında keçirilən 24-cü Şanxay Beynəlxalq İncəsənət Festivalı çərçivəsində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının kollektivi Bakı Dövlət Kamera Orkestrinin müşayiəti ilə çıxış edib.**



Orkestrin bədii rəhbəri və baş dirijoru, Əməkdar artist Fuad İbrahimov, solistlər isə Xalq artisti Yeganə Axundova və beynəlxalq müsabiqələr laureatı Nəzrin Aslanlı (violin) olub.

Filarmoniyadan bildirilib ki, konsertdə Azərbaycan və dünya klassik musiqisinin inciləri təqdim olunub.

Proqramda Ü.Hacıbəyli "Arazbarı", Q.Qarayev "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərindən iki rəqs, W.A.Motsart Divertisment D-dur (I hissə), B.Britten "Sadə simfoniya"sın dan "Sentimental sarabanda" ( III hissə), A.Vivaldi "İlin fəsilləri" silsiləsindən "Yay", J.S.Bach Brandenburq konserti N°3, G-dur, A.Piazzolla "Buenos-Ayresdə ilin fəsilləri silsiləsindən "Yaz", F.Mendelssohn Simli simfoniya N°10, b-moll, F.Əmirov "Nizami" simfoniyası (Final), F.Bədəlbəyli "Dəniz", T.Quliyev "Qaytağı" əsərləri səsləndirilib.

Azərbaycanlı ifaçıların çıxışı dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanıb. Belə mötəbər beynəlxalq festivalda iştirak ölkəmizin musiqi mədəniyyətinin, ifaçılıq ənənələrinin və milli dəyərlərinin dünya miqyasında tanınması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir və təqdirəlayiq bir addımdır.

Ustad sənətkarlarımız

## Azərbaycanın ilk Xalq artisti



**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası çox böyük sənətkarların ifasına şahid olmuşdu. O gün - 1965-ci il avqustun 10-u isə bu sənət ocağının yaddaşında növbəti heyrətamiz ifa ilə qalırdı. Filarmoniyanın səhnəsində səksən beş yaşlı tarzən Qurban Pirimov tarını "Rahab"la dindirirdi. Qocaman tarzənlə bərabər tamaşaçılar da zamanı və məkanı unutmuşdular. Hər kəsin ruhu, duyğuları dinlədiyi muğam üstə köklənmişdi. Tarzən 23 dəqiqə "Rahab" çaldı. Tamaşaçı alqışları salonu bürüdü. Qocaman tarzən üç dəfə səhnəyə qayıtmalı oldu...**

### Ömrə yoldaş, qəlbə sirdaş

Yaşı bilinməyən, əsrarəngiz muğamlarımız, xalq mahnılarımız onun ifasında daha da ecazkar səslənirdi. Tarzən Qurban Pirimov tara uşaqlıq illərindən elə bağlanmışdı ki, onu bütün ömrünə yoldaş, qəlbinə sirdaş seçmişdi. O, bu musiqi aləti ilə tanınmış, məşhurlaşmışdı...

Qurban Pirimov 1880-ci il oktyabrın 30-da Şuşa qəzasının Gülablı kəndində dünyaya gəlib. O, XVIII əsrdə Qarabağda məşhur olmuş aşıq Valehin nəticəsi idi. Musiqiyə bağlılıq ailə ənənələrinə çevrilmişdi. Qurban Pirimov körpəlikdən musiqiyə dərin sevgi və pərəstiş görmüşdü.

Evlərində çox əziz tutulan saz uşaqlıq illərindən onu da heyran edib. Ancaq Qurban Pirimov kiçik yaşlarından başqa bir musiqi alətində - tarda çalmağı öyrənib. Hər gün Gülablıdan Şuşaya kilometrlərlə yol gedib məşhur tarzən Sadıqcandan dərs alıb.

Qurban Pirimov müəllimi Sadıqcanın xeyir-duasını alıb Qarabağ toylarında məşhur xanəndələri müşayiət etməyə başlayanda on beş yaşında idi. Toyların birində onun tar çalmasını bəyənən xanəndə İslam Abdullayev Qurbanı özünə tarzən götürüb. 1905-ci ildə Gəncə toylarının birində isə gənc tarzənin ifası xanəndə Cabbar Qaryağdıoğlunun diqqətini cəlb edib. Cabbar Qaryağdıoğlu İslam Abdullayevin razılığını alaraq Qurban Pirimovu Bakıya gətirib. Birlikdə Zaqafqaziyanın müxtəlif yerlərində, eləcə də Orta Asiya, Kiyev, Moskva və İranda qastrol səfərlərində olublar. Qurban Pirimovun da şöhrəti həmin illərdə Azərbaycanın sərhədlərini aşıb. 1906-1916-cı illərdə tarzənin ifa etdiyi muğamlar Riqa, Varşava və Kiyev şəhərlərində "Potte", "Sport-Rekord", "Qrammafon" şirkətləri tərəfindən qrammofon valına yazılıb.

Qurban Pirimov İslam Abdullayev, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Seyid Şuşinski, Ələsgər Abdullayev kimi dövrünün tanınmış xanəndələrini müşayiət edib.

Yaxın Şərqdə yazılmış ilk opera - Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" əsəri 1908-ci ildə ilk dəfə tamaşaya qoyulanda Qurban Pirimov orkestrin solisti kimi tarda ifa edib.

Dahi Üzeyir bəylə, Müslüm Maqomayevlə, Zülfüqar Hacıbəyovla dostluğu Qurban Pirimovun yaradıcılığına da təsirini göstərib.

Tarzən 1920-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. Qurban Pirimov 1934-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının olimpiadasında birinci yeri tutub. 1939-cu ildə Moskvada keçirilmiş musiqiçilərin ümumittifaq baxışının qalibi olub.

Sənətkar Azərbaycan musiqi sənətinin inkişafına pedaqoq kimi də xidmət göstərib. Azərbaycan tar ifaçılığı məktəbinin görkəmli nümayəndələri Hacı Məmmədov, Məmmədağa Muradov, Həbib Bayramov, Zərif Qayıbov, Əliağa Quliyev, Sərvər İbrahimov ondan dərs alıblar.

Qurban Pirimov 1925-ci ildə Üzeyir bəy Hacıbəylinin rəhbərliyi ilə muğam proqramının hazırlanmasında da yaxından iştirak edib.

Ona hörmətlə, ehtiramla "Qurban əmi" deyə müraciət ediblər. Qurban Pirimovun elə söhbətlərinin, tövsiyələrinin, məsləhətlərinin özü də məktəb sayılıb.

Qurban Pirimov Azərbaycan professional musiqisinin inkişafına müstəsna xidmətlər göstərib. Niyazi, Fikrət Əmirov, Qara Qarayev, Tofiq Quliyev, Sevda İbrahimova kimi bəstəkarlar onun ifasından bir sıra muğam, xalq mahnı və təsniflərini nota köçürüblər.

Mahir tarzənin yaradıcılığı yüksək qiymətləndirilib. O, müxtəlif illərdə Əməkdar artist, Xalq artisti fəxri adları, "Qırmızı əmək bayrağı" ordeni, "Şərəf nişanı" ordeni ilə təltif edilib. Azərbaycanda Xalq artisti fəxri ada 1931-ci ildə ilk dəfə tarzən Qurban Pirimov layiq görülüb.

### Qocaman tarzənin gənclik eşqi...

O, yaşa dolsa da, tarını gənclik eşqi, həvəsi ilə dilləndirib. Xalq artisti Canəli Əkbərov tarzənin ifasına heyranlığını belə ifadə edib: "Qurban əmi çalanda sanki tar dil açıb danışırdı. Tarzən əlinə tarı alanda çalğısı ilə gözəl, rəvan dərsi tədris edən, mahnını sevdirən müəllimi xatırladırdı. Onun çalğısında bir balans, muğam cütlüyündən kənara çıxmayan kvadratura olub".

Xanəndə Canəli Əkbərovun ustad tarzənlə bağlı xatirələrindən biri də belə idi: "50-ci illər olardı. Erməni tarzəni Bala Merkomyanla onun sənət yarışması olub. Bu yarış üçün erməni tarzəni xüsusi tar bağladıb. O, "Mahur"u, Qurban əmi isə "Bayatı Şiraz"ı çalıb. Qurbanın çalğısına sinə gərmək hər tarzənə qismət olmayıb. O, elə aydın, səlis, yumşaq, şirin çalıb ki, həmkarı tarı qoyub, səhnəni tərk edib".

Qurban Pirimovun nəvəsi, bəstəkar, Xalq artisti, professor Sevda İbrahimova babası haqqında deyib: "Bizim ailə poeziya və musiqi ilə sıx əlaqədar olub. Babam ustad tarzən Qurban Pirimov, atam görkəmli yazıçı Mirzə İbrahimov və anam - ilk pianoçu qadın Sara xanım. Əlbəttə, belə bir mühitdə böyümək təbii ki, xoşbəxtlikdir. Amma bir xoşbəxtlik də onda oldu ki, mən də ruhən musiqi dünyasına bağlandım. Elə bu hisslərimi də duyanlardan birincisi məhz Qurban baba oldu. Hələ mən uşaq idim, birinci, ikinci sinifdə oxuyardım o, tarda məxsusən mənim üçün muğamlar ifa edərdi. Təbii ki, mən böyüdükcə babamın ustadlığını daha dərindən dərk edirdim. O da mənim musiqi qabiliyyətimə çox ciddi yanaşmağa başladı. Pianoda ifalarımdan babam çox məmnun qalardı. Artıq ailəmizdə belə bir ənənə yaranmışdı. Nə isə bir ailə tədbiri olanda mütləq babam tarda ifa edər, mən də onu fortepianoda müşayiət edərdim. O vaxtlar istirahət günləri radioda "Muğamat konserti" veriləndə Qurban baba, atam, anam və biz uşaqlar sanki konsert salonunda olduğu kimi həmin proqramı diqqətlə dinləyərdik".

Sevda İbrahimova babasının klassik musiqini çox sevdiyini və müasir bəstəkarların əsərlərinə maraqla qulaq asdığını söyləyib: "Onun Qara Qarayev, Fikrət Əmirov, Niyazi və digər bəstəkarlara böyük hörmət və rəğbəti vardı".

Sevda xanım Qurban Pirimovun Qarabağa tükənməz sevgisindən də danışıb: "Babam Qarabağı, Şuşanı çox sevirdi. Hətta o, ölümünə bir neçə gün qalmış dedi ki, Qarabağ torpağının suyundan içmək istəyirəm. Xalam onun üçün oradan bulaq suyu gətirdi. Həmin suyu içəndən bir neçə saat sonra babam dünyasını dəyişdi".

Qurban Pirimov 29 avqust 1965-ci ildə Bakı şəhərində vəfat edib. Fəxri Xiyabanda torpağa tapşırılıb.

Qocaman tarzən gözlərini əbədi yumanda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında son çıxışından on doqquz gün keçirdi. Onun ifa etdiyi "Rahab"ın sədası hələ qulaqlardan getməmişdi...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
## AZ-MLSPP-463551-GO-RFB
## Müqavilə təltifi barədə bildiriş

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Məşğulluğa Dəstək Layihəsi çərçivəsində "Özünəxidmət avtoyuma", "Avtodəmirçi xidmətləri və PDR (zədələrin boyasız təmiri)", "Avtorazval xidməti" və "Avtomobil disklərinin təmiri" zərfləri üzrə avadanlıqların satın alınması
**Ölkə:** Azərbaycan
**Kredit №** / Qrant №: № AZ-9044
**RFQ №:** AZ-MLSPP-463551-GO-RFB

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində "Özünəxidmət avtoyuma", "Avtodəmirçi xidmətləri və PDR (zədələrin boyasız təmiri)", "Avtorazval xidməti" və "Avtomobil disklərinin təmiri" zərfləri üzrə avadanlıqların satın alınması ilə bağlı keçirilmiş açıq tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilənin təltif edilməsi məlumatlarını əks etdirir.

Satınalan təşkilat 25-26 fevral 2025-ci il tarixlərində "Azərbaycan" qəzetində, "Azerweb" və UN Development Business htpp://devbusiness.un.org portallarında Təkliflər üçün Sorğu elanı vasitəsilə uyğun iddiaçıları möhürlənmiş tender təkliflərinə dəvət etmişdir. Aşağıdakı iddiaçılar tender sənədlərini əldə etmişlər:

- "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Türkiyə)
- "Endless Goods" QSC (Azərbaycan)
- "Rems" MMC (Azərbaycan)
- "ZN Trade" MMC (Azərbaycan)

Təkliflərin təqdim olunması üçün müəyyən edilmiş son tarix 23 aprel 2025-ci il idi. 4 iştirakçı şirkətin texniki təklifləri 23 aprel 2025-ci il saat 15:00-da (yerli vaxtla) açılmışdır. Kvalifikasiya qiymətləndirilməsinin nəticələrinə əsasən, "Rems" MMC kvalifikasiya tələblərinə əsasən əhəmiyyətli dərəcədə uyğunsuz hesab edilmişdir və texniki cəhətdən əhəmiyyətli dərəcədə uyğun olan iddiaçılara aşağıdakı texniki ballar verilmişdir:

- "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Türkiyə) - 40.00 bal
- "Endless Goods" QSC (Azərbaycan) - 40.00 bal
- "ZN Trade" MMC (Azərbaycan) - 30.00 bal

12 avqust 2025-ci il saat 12:00-da (yerli vaxtla) texniki cəhətdən əhəmiyyətli dərəcədə uyğun olan iddiaçıların maliyyə təklifləri açılmışdır.

| No. | İddiaçı | Elan olunmuş təklif dəyəri (ABŞ Dolları) | Qiymətləndirilmiş təklif dəyəri (ABŞ Dolları) |
|---|---|---|---|
| 1 | "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Türkiyə) | 2,898,500.00 | 2,898,500.00 |
| 2 | "Endless Goods" QSC (Azərbaycan) | 2,425,572.00 | 2,425,572.00 |
| 3 | "ZN Trade" MMC (Azərbaycan) | 2,583,692.60 | 2,583,692.60 |

Tender Komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və hər aktiv paketi üzrə ən aşağı qiymət təklifi təqdim etmiş təchizatçı ilə müqavilənin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 05 sentyabr 2025-ci il tarixində göndərilmişdir. Gözləmə müddəti 08-19 sentyabr 2025-ci il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçıya müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 10 oktyabr 2025-ci ildə aşağıdakı müqavilə imzalanmışdır:

***"Endless Goods" QSC - Cəmi dəyəri ƏDV daxil - 2,425,572.00 ABŞ dolları***
***(iki milyon dörd yüz iyirmi beş min beş yüz yetmiş iki ABŞ dolları).***

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project
## AZ-MLSPP-463551-GO-RFB
## AWARD NOTICE

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Procurement of equipment for "Self-service car washing", "Car tinsmith services and PDR (paintless dent repair)", "Wheel alignment services" and "Auto wheel repair services" assets under new occupations
**Country:** Azerbaijan
**Loan No. /Credit No. / Grant No.:** No. AZ-9044
**RFQ No:** AZ-MLSPP-463551-GO-RFB

This notice includes the results of the bid evaluation and contract award for the RFB process for the Procurement of equipment for "Self-service car washing", "Car tinsmith services and PDR (paintless dent repair)", "Wheel alignment services" and "Auto wheel repair services" assets under new occupations.

The Procuring Agency has invited sealed Bids from eligible Bidders through the announcement for Request for Bids in national newspaper "Azerbaijan", "Azerweb" portal and UN Development Business at htpp://devbusiness.un.org on February 25-26, 2025. The following applicants obtained the bidding documents:

- "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Turkiye)
- "Endless Goods" CJSC (Azerbaijan)
- "Rems" LLC (Azerbaijan)
- "ZN Trade" LLC (Azerbaijan)

The deadline specified for submission of bids was set for April 23, 2025. The Technical bids of 4 participating companies were opened on April 23, 2025, 15:00 (local time). As a result of qualification evaluation the Bidder "Rems" was found substantially non-responsive to the qualification requirements, and the technical scores of substantially responsive bidders were allocated as follows:

- "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Turkiye) - 40.00 points
- "Endless Goods" CJSC (Azerbaijan) - 40.00 points
- "ZN Trade" LLC (Azerbaijan) - 30.00 points

On August 12, 2025, 12:00 (local time) the financial bids of the substantially responsive bidders were opened:

| No. | Name of Bidder | Bid Price as Read Out (USD) | Evaluated Bid Price (USD) |
|---|---|---|---|
| 1 | "Aday Group Insaat Taahhut Turizm Hayvancilik ve Tarim Danişmanlığı Ticaret Limited Şirketi" (Turkiye) | 2,898,500.00 | 2,898,500.00 |
| 2 | "Endless Goods" CJSC (Azerbaijan) | 2,425,572.00 | 2,425,572.00 |
| 3 | "ZN Trade" LLC (Azerbaijan) | 2,583,692.60 | 2,583,692.60 |

The Tender Committee evaluated the final prices and recommended the contract to be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on September 05, 2025. The standstill period was applied from September 08 to September 19, 2025. No complains/clarification requests were received. After expiry of standstill period the Letter of award to successful bidder was issued. The following contract was signed on October 10, 2025:

***"Endless Goods" CJSC - Total cost including VAT - USD 2,425,572.00***
***(two million four hundred twenty five thousand five hundred and seventy two United States Dollars).***

# Yaponiya tarixində ilk qadın baş nazir seçilən Sanae Takaitinin qarşısında hansı vəzifələr durur



Hakim partiyanın seçkilərdəki məğlubiyyəti, hökumət koalisiyasının dağılması və kabinetin istefası - Yaponiyada üçaylıq siyasi sabitsizlik dövrü başa çatıb. Ölkənin yeni baş naziri var - ifrat mühafizəkar millətçi baxışları ilə tanınan Sanae Takaiti.

Oktyabrın 20-də Yaponiya parlamenti Sanae Takaitini baş nazir seçib. O, ölkə tarixində bu vəzifəni tutan ilk qadındır. Yeni hökumət başçısının namizədliyini 465 deputatdan 237-si dəstəkləyib. S.Takaiti artıq kabinetini formalaşdırmağa başlayıb.

Səsvermə onun hakim Liberal Demokrat Partiyasının yeni tərəfdaşı İnnovasiyalar Partiyası ilə hökumət koalisiyası yaratdığını elan etdikdən sonra baş tutub.

Sanae Takaiti iyul ayında keçirilən seçkilərdə LDP-nin sarsıdıcı məğlubiyyətindən yaranan üç aylıq siyasi boşluğa son qoyaraq istefa verən baş nazir Şiqeru İşibanı əvəz edəcək. Cəmi bir il bu vəzifədə olan İşiba çərşənbə axşamı kabineti ilə birlikdə istefa vermişdi.

Amma mühafizəkarlarla sağçıların yeni koalisiyası hələ də çoxluğa nail olmaq üçün parlamentdə kifayət qədər yerdən məhrumdur və istənilən qanunu qəbul etmək üçün digər müxalifət qruplarını öz tərəfinə çəkməli olacaq. Bu o deməkdir ki, Takaiti hökumətinin qeyri-sabit və səmərəsiz olmaq riski var. Təsadüfi deyil ki, S.Takaiti bazar ertəsi İnnovasiyalar Partiyasının lideri və Osaka qubernatoru Hirofumi Yosimura ilə imzalanma mərasimində deyib: "Siyasi sabitlik indi çox vacibdir - sabitlik olmasa, biz güclü iqtisadiyyat və ya diplomatiya qurmaq üçün tədbirləri irəli apara bilməyəcəyik".

Srağagün iki partiya Takaitinin itratmühafizəkar millətçi fikirlərini əks etdirən koalisiya sazişi imzalayıb. Razılaşma liberal demokratların çoxdankı tərəfdaşlarını - daha yumşaq, daha mərkəzçi mövqedən çıxış edən buddistlərin dəstəklədiyi "Komeyto" Partiyasını itirməsindən 10 gün sonra əldə edilib. Koalisiyanın dağılması Yaponiyada onilliklər boyu hakimiyyəti əlində saxlayan LDP-nin hökmranlığını təhlükə altına qoyub.

Bəs Sanae Takaiti kimdir? O, 1961-ci ildə Nara prefekturasında doğulub. Anası polis zabiti, atası ofis işçisi olub. Kobe Universitetinin İqtisadiyyat fakültəsini bitirib. Tələbə ikən gələcək baş nazir xevi - metal musiqisi və motosikletlərlə maraqlanıb. Məzun olduqdan sonra o, ABŞ-də təcrübə keçərək demokrat konqresvumen Patrisiya Şröderin aparatında təcrübə qazanıb.

Takaitinin siyasi karyerası 1980-ci illərdə - ABŞ və Yaponiya arasında ticarət gərginliyi pik həddinə çatdıqda başlayıb. 1990-cı illərin əvvəllərindən bəri o, yalnız bir dəfə uduzub və 9 dəfə parlamentə deputat seçilib. Daha sonra Sindzo Abe hökumətində qısa müddət müxtəlif nazir vəzifələrində çalışıb.

Yeni baş nazirin iş qrafiki ilk bir neçə ayda kifayət qədər sıx olacaq. Onun həftənin sonunda əsas nitqlə çıxış etməsi planlaşdırılır. Daha sonra Sanae Takaitini ABŞ Prezidenti Donald Trampla danışıqlar və regional sammitlər gözləyir.

Yeni baş nazir ictimai narazılığı aradan qaldırmaq üçün qiymət artımlarını dayandırmaq və dekabrın sonuna qədər iqtisadi stimullaşdırma tədbirləri hazırlamalıdır.

Onun mühafizəkar fikirlərini nəzərə alaraq analitiklər hesab edirlər ki, S.Takaiti yeni vəzifəsində gender bərabərliyi və ya müxtəlifliyi təşviq etməkdən çəkinəcək. O, Yaponiyada qadınların statusunu yaxşılaşdırmaq üçün tədbirlərə mane ola biləcək siyasətçi hesab edilir. Takaiti həmçinin İmperator Xrizantema taxtının mövcud olan yalnız kişi varislik xəttini dəstəkləyir və eynicinsli nikahlara, habelə qadınların evləndikdən sonra qızlıq soyadlarını saxlamaq hüququna qarşıdır.

Yaponiyanın tarixində ilk qadın baş nazirin sui-qəsd nəticəsində öldürülən keçmiş hökumət başçısı Sindzo Abenin ordunu və iqtisadiyyatı gücləndirmək, eləcə də Yaponiyanın pasifist konstitusiyasına yenidən baxılması siyasətini davam etdirəcəyi gözlənilir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Vətən müharibəsi şəhidləri və əlilləri haqqında "Unudulmazlar" innovativ informasiya resursunun imkanlarının genişləndirilməsi", "Görmə imkanı məhdud olan şəxslər üçün innovativ təşəbbüslərin həyata keçirilməsi" və "Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması" adlı *müsabiqələr keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 5 noyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqələr 6 noyabr 2025-ci il saat 11:00-dan etibarən agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

# Yağış yağacaq, dolu düşəcək

**Azərbaycanda oktyabrın 22-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin oktyabrın 21-dən 22-nə keçən gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 13-15, gündüz 17-20 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət isə 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14, gündüz 18-22, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Şadlinskilər ailəsinə əzizləri

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mirələm və Mirhaşim Calalovlar professor Vaqif Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Mərkəzi Seçki Komissiyası Katibliyinin sabiq şöbə müdiri

**CAVANŞİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini, general-leytenant Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi, general-mayor Anar Cahangirova anası

**SVETLANA CAHANGİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2160

Qiyməti 60 qəpik